12_27 IYUl-QARA.qxd 4/4/2024 10:56 PM Page 1


# UNİKAL

№12 (2194) 5 aprel 2024-cü il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev www.unikal.az unikal-1@mail.ru




# Azərbaycan Prezidentindən Qərbə mesaj:

## "Daxili işlərimizə müdaxilə qəbuledilməzdir"



Səh.2

## Fəxri Kazımova ağır ittihamlar

*Yola salmaq üzrə olduğumuz həftə Milli Məclisdə "İpoteka haqqında" qanuna təklif edilən dəyişikliyin müzakirəsi zamanı parlamentin Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov ilginc fikirlər səsləndirib. "Yalnız 3 jurnalist güzəştli ipoteka krediti alıb" deyən Siyavuş Novruzov əlavə edib ki, dövlət başçısı istəyir ki, hər bir vətəndaş yaxşı yaşasın və ipoteka kreditindən faydalana bilsin: "Hazırda isə ipoteka kreditindən yalnız dövlət qulluğunda çalışan faydalana bilir. Digər şəxslərin bu kreditlərdən faydalanmağı çətin məsələdir. Bənna, zərgər, dülgər və digərləri ipoteka krediti ala bilmir.*

Səh.8

## "Prezidentin səlahiyyəti var ki, vaxtından əvvəl seçkiləri çağırsın"



*Milli Məclisin Regional məsələlər komitəsinin sədri, deputat Siyavuş Novruzov "Unikal"a müsahibə verib. O, növbədənkənar parlament seçkilərinin keçirilə biləcəyindən, müəllim və həkimlərin pensiya yaşından, Ermənistan-ABŞ-Avropa İttifaqının üçtərəfli görüşünün məqsədindən və başqa məsələlərdən danışıb.*

Səh.4

## "İtaliyanın yürütdüyü siyasət Fransaya nümunə olmalıdır"



*İtaliyanın xarici işlər və beynəlxalq əməkdaşlıq nazirinin müavininin verdiyi bu açıqlama ilk növbədə beynəlxalq hüququn təməl prinsip və normalarına hörmətin əlamətidir. Bu, eyni zamanda, ölkələrin daxili işlərinə müdaxilənin və Azərbaycanla Ermənistan arasında normallaşma və sülh...*

Səh.2

## Rüfət Quliyevin doğru iradı və absurd məntiqi



*Bu günlərdə Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında deputat Rüfət Quliyev ölkə vətəndaşlarının çoxunu narahat edən bir məsələyə diqqət çəkib. Söhbət Azərbaycanın "dərman bazarı"nda hələ də hökm sürən "bezpredel"dən gedir.*

Səh.8

12_27 IYUI-QARA.qxd 4/4/2024 10:59 PM Page 2



# Rəqsanə Moskvada saxlanılmasından danışdı



***Azərbaycanlı tanınmış müğənni Rəqsanə İsmayılova Moskvada saxlanılıb.***

"Unikal" Rusiya mətbuatına istinadən xəbər verir ki, Rusiya daxili işlər nazirliyi müğənnini qanunsuz miqrasiyanın təşkilinə görə cinayət işi üzrə nəzarətə götürüb.

R. İsmayılova Rusiya Federasiyası Cinayət Məcəlləsinin "Rüşvət vermə" və "Sənəd saxtakarlığı" maddələri ilə ittiham olunur.

Bildirilir ki, müğənni ötən gün İstintaq Komitəsinin Solntsevo İstintaq İdarəsinə gətirilib. O, başqa bir şəxslə əlbir olaraq iki nəfər azərbaycanlıya saxta pasport çıxartdırıb.

Müstəntiqlərin fikrincə, Rəqsanə İsmayılova əlbir olduğu şəxsə 650 min rubla ( 11 960 AZN) yaxın pul köçürüb və o, sübut olunmuş variant vasitəsilə azərbaycanlılara yeni sənəd almağa kömək edib.

Müğənni Rəqsanə İsmayılova Moskvada saxlanılması ilə bağlı yayılan xəbərlərə münasibət bildirib.

"Unikal" xəbər verir ki, sənətçi yazılanların həqiqətə uyğun olmadığını deyib.

"Boş-boş başınızı ağrıtmayın. Mənə heç bir şey olmayıb. Yalan məlumatlardır. Mənim üçün narahat olduğunuz üçün çox sağ olun. Evimdəyəm, Moskvadayam. Ayın 10-dan sonra da Azərbaycanda olacam. Heç bir problemim də yoxdur. Heç bir şey olmayıb.

# Ağakərimin son vəziyyəti açıqlandı

***"Vaxtaşırı Ağakərimin evinə gedib ona baş çəkirəm. Amma təəssüflər olsun ki, onun yanına gedəndə Ağakərim danışmır. Bir tək salamımı alır. Uzanıb, qalıb... Nə danışa, nə otura, nə dura, nə də ki gəzə bilir. Yalnız nəfəsi gedib-gəlir".***

"Unikal" xəbər verir ki, bu sözləri Ağamirzə Məmmədov uzun illərdir yataq xəstəsi olan həmkarı Ağakərim ləqəbi ilə məşhurlaşan Kərim Novruzovun səhhəti ilə bağlı Bizim.Media-ya deyib.



Söz ustadı bildirib ki, Ağakərimin sağlamlığında heç bir irəliləyiş yoxdur: "Heydər Əliyev Fondu Ağakərimin səhhəti ilə mütəmadi maraqlanır. Bundan daha əvvəl xəstəxana müalicələrini də öz üzərinə götürmüşdü. Amma xəstənalıq bir şey də yoxdur. Ağakərim istər evdə, istərsə də xəstəxanada qalsın, onun səhhəti ilə bağlı heç bir irəliləyiş və fərqi yoxdur. Həkimlərin əlindən gələn bir iş yoxdur. Amma nə zaman ehtiyac olarsa, xəstəxana onu qəbul eləməyə hazırdır".

Xatırladaq ki, 2017-ci ildə Ağakərimin beyninə qan sızıb. Meyxanaçı ötən ilin dekabrında ikinci dəfə insult keçirib.

# "Avroviziya" şərhçimiz bəlli oldu



***"Avroviziya 2024" beynəlxalq mahnı müsabiqəsinin Azərbaycandan builki şərhiçisinin kimliyi açıqlanıb.***

İctimai Televiziya və Radio Yayımları Şirkətinin Mətbuat xidmətindən "Unikal"a verilən məlumata görə, yarışmada şərhçi tanınmış televiziya və radio aparıcısı Nurlana Cəfərova olacaq. O, şounun bütün mərhələlərini İctimai Televiziyanın efirindən şərh edəcək.

Xatırladaq ki, İsveçin Malmö şəhərində keçiriləcək "Avroviziya-2024" mahnı müsabiqəsinin yarımfinal mərhələləri bu il mayın 7-si və 9-u, final mərhələsi isə mayın 11-də baş tutacaq. Püşkatma nəticəsində Azərbaycan bu il 1-ci yarımfinalda çıxış edəcək. Müsabiqədə Azərbaycanı "Özünlə apar" mahnısı ilə müğənni Fəxri İsmayılov - Fahree və muğam ifaçısı İlkin Dövlətov təmsil edəcəklər.

# "Atamla münasibətim yoxdur..." - Mina Hüseyn



***"Ailədə üç uşağıq. Mən iki qardaşın bir bacısıyam". Bu sözləri müğənni Mina Hüseyn "Həmin Zaur" verilişində deyib.***

İfaçı 8 yaşı olarkən valideynlərinin ayrıldıqlarını bildirib: "Atamla anam mənim 8 yaşım olanda ayrılıblar. Anam ev xanımıdır. Ailəmizi qardaşlarım dolandırır. Onların işləri barədə danışmaq istəmirəm. Onlar evlidilər, mən də anamla qalıram. Qardaşlarım müğənni olmağıma razıdırlar. Biz müasir ailəyik. İndi atamla münasibətim yoxdur. Atam hələ də evlənməyib".

# "Evdə qalmışam" - Kəmalə Piriyeva



***"Hə, evdə qalmışam. Ona görə də "Evdə qalmış" filmi çəkiləndə rejissorun ilk ağlına gələn aktrisa mən olmuşam".***

Bu sözləri aktrisa-aparıcı Kəmalə Piriyeva "Rəngarəng səhər" verilişində deyib. Sənətçi ailə qurmaması ilə bağlı suala belə cavab verib: "Gördüm ki, o obrazı çox yaxşı oynaya bilərəm və oynadım. Kim deyir ki, hamı mütləq ərə getməlidir. Elə bir şey var? Qismət, tale. Nə vaxt olsa, olar. Bunun üzərinə getmirəm. Ola bilər ki, heç vaxt ailə qurmayım".

# "Dizimi heç kim yerə ata bilməz"- Aşıq Mübariz



***Saz ifaçısı Mübariz Camaloğlu növbəti açıqlaması ilə gündəm olub.***

Bakıvaxtı.az xəbər verir ki, Mübariz saz ifaçıları arasında özünə rəqib tanımayıb. Belə ki, o, həmkarlarını duelə çağıraraq onlara səslənib: "Mənim dizimi heç kim yerə ata bilməz. Elə bir insan anasından olmayıb. Mən kiminsə dizlərini yerə ata bilərəm.

# "Oturub bar stolunun üstündə nə gəldi ifa edirlər" - İlqar Xəyal

***Müğənni İlqar Xəyal gitara ifaçılarını tənqid edib.***

Müğənni bu haqda "Xeyirli axşamlar" verilişində danışıb. O bildirib ki, Azərbaycanda peşəkar gitara ifaçısı azdır: "Bu günmusiqiçilərdən çoxu gitaradan düzgün istifadə etmirlər. Qucaqlarında gitara oturub restoranda bar stolunun üstündə mahnı oxuyurlar. Mənşəyi məlum olmayan ifalar təqdim edilir. Adam oturub çörək yeyəndə ifadan iştahı ölür. Deyirsən, durum gedim. Ölkədə iki-üç gitara ifaçısı var".



12_27 IYUI-QARA.qxd 4/4/2024 11:00 PM Page 3



# Postmünaqişə dövründə 350 nəfər azərbaycanlı mina qurbanına çevrilib - XİN



***4 aprel tarixi Beynəlxalq Mina Xəbərdarlığı və Minatəmizləmə Fəaliyyətinə Yardım Günü kimi qeyd olunur.***

”Unikal” xəbər verir ki, bu barədə Xarici İşlər Nazirliyi bəyanat yayıb. Bildirilib ki, Azərbaycan Respublikasının ərazilərinin Ermənistan tərəfindən 30 ilə yaxın davam edən hərbi işğalı zamanı, habelə hazırkı postmünaqişə dövründə mina təhdidindən əziyyət çəkən, çoxsaylı mina qurbanları verən ölkəmiz mina təhlükəsi ilə ciddi şəkildə mübarizənin vacib olduğunu vurğulayır.

Ermənistan tərəfindən hətta postmünaqişə dövründə belə davam etdirilən mina təhdidi bölgədə aparılan bərpa və yenidənqurma işlərini, keçmiş məcburi köçkünlərin öz torpaqlarına qayıdışı prosesini ləngitməklə yanaşı, vətəndaşlarımızın həyat və sağlamlıqları üçün ciddi təhlükə mənbəyi olaraq qalmaqdadır.

44 günlük Vətən müharibəsi və münaqişənin bitməsindən sonra belə Ermənistan üzərinə götürdüyü öhdəliklərinə zidd olaraq, Laçın yolundan qeyri-qanuni məqsədlər, o cümlədən mina təhdidinin davam etdirilməsi məqsədilə istifadə edib. 2022-ci ildə Laçın və Kəlbəcər rayonlarının ərazisində 2021-ci il Ermənistan istehsalı olan 2700-dən çox piyada əleyhinə minanın aşkar edilməsi bu faktı təsdiqləyir. 2023-cü ilin sentyabr ayında antiterror tədbirlərindən sonra, Rusiya sülhməramlı qüvvələrinin müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərində və bu ərazilərin perimetrləri boyunca 500 mindən artıq mina basdırıldığı faktının aşkarlanması bu təhdidin miqyasını sübut edən faktlardır. Bu, eyni zamanda, son onilliklər ərzində Ermənistan tərəfindən guya minaların istehsal və ixrac olunmadığı barədə bəyanatların heç bir əsasının olmadığını nümayiş etdirib.

Ermənistan tərəfindən davam etdirilən mina təhdidi nəticəsində demək olar ki, gündəlik əsasda baş verən mina partlayışları zamanı postmünaqişə dövründə ümumilikdə 350 nəfər azərbaycanlı mina qurbanına çevrilib. Onlardan 50 nəfər mülki şəxs, 15 nəfər hərbi qulluqçu olmaqla, 65 nəfər həlak olub.

İndiyədək baş vermiş mina hadisələrinin coğrafiyası, onların əksəriyyətinin keçmiş təmas xəttindən kənarda, xüsusilə mülki obyektlərin, yaşayış məntəqələrinin, habelə məzarlıqların yerləşdikləri məkanlarda baş verməsi Ermənistanın mina təhdidinin məqsədyönlü şəkildə mülki əhali arasında itkilərin çox olmasına yönəldiyini sübut edir. Bu da öz növbəsində Ermənistan tərəfindən azərbaycanlılara qarşı mövcud etnik nifrət və dözümsüzlüyün növbəti təzahürüdür.

Ölkəmiz tərəfindən bu təhdidə son qoymaq məqsədilə minalanmış ərazilərin xəritələrinin Ermənistan tərəfindən təqdim edilməsinə dair dəfələrlə çağırışlara baxmayaraq, bu ölkə uzun bir müddət ərzində ümumiyyətlə belə xəritələrin mövcudluğunu inkar edib. Beynəlxalq ictimaiyyət tərəfindən göstərilən təzyiqlər nəticəsində təqdim olunmuş, minalanmış ərazilərin kiçik bir hissəsinin əhatə olunduğu məlumatların etibarlılığı isə cəmi 25% təşkil edib. Son dövrlərdə baş verən mina hadisələrinin 55%-dən çoxu təqdim olunmuş məlumatların əhatə etdiyi ərazilərdən kənarda baş verib.

Ermənistan tərəfindən mina təhdidinə münasibətdə sərgilənən davranış postmünaqişə dövründə bölgədə dayanıqlı sülh və etimad quruculuğu istiqamətində görülən tədbirlərə daha bir zərbədir.

4 Aprel - Beynəlxalq Mina Xəbərdarlığı və Minatəmizləmə Fəaliyyətinə Yardım Günündə Azərbaycan bir daha beynəlxalq ictimaiyyəti Ermənistanın mina təhdidinin qınanılması, bu ölkə tərəfindən mina xəritələrinin təqdim olunması, eləcə də Azərbaycanda mina təhdidinin aradan qaldırılması istiqamətində dəstək göstərmək məqsədilə ardıcıl tədbirlər görməyə çağırır.

# Rüfət Quliyevin doğru iradı və absurd məntiqi

## Kəmaləddin Qafarovla Cavanşir Feyziyev "bostanlarına atılan daşlar" qarşısında niyə səssizdirlər?

***Bu günlərdə Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında deputat Rüfət Quliyev ölkə vətəndaşlarının çoxunu narahat edən bir məsələyə diqqət çəkib. Söhbət Azərbaycanın ”dərman bazarı”nda hələ də hökm sürən ”bezpredel”dən gedir.***

R.Quliyev məlum çıxışında dövlətin dərman və dərman preparatları ilə bağlı böyük işlər gördüyünə diqqət çəkib, bununla belə, sözügedən sahədəki problemlərə də toxunub: “Bir qutusu 73 manata olan “Sincardi” dərmanı artıq ölkəyə gəlmir. Onun əvəzinə ölkəyə gətirdikləri dərman isə 230 manatdır. Yəni vətəndaş 73 manat əvəzinə 230 manat verib, özünə dərman almalıdır?! Bunun qarşısını almaq lazımdır. Mən bir dəfə burada başqa dərmanla bağlı çıxış etmişdim, o məsələ həll olunmuşdu. Biz yenə də bu məsələlərdə insanlara kömək etməliyik. Burada şirkətlər oyunlar oynayır”.



Başqa bir deputat - Elnur Allahverdiyev də həmkarını dolayı yolla dəstəkləyib. O qeyd edib ki, dərman, dərman preparatlarının keyfiyyəti araşdırılmalıdır: “Hərarət azaldıcı dərmanların keyfiyyəti araşdırılmalıdır. Qardaş Türkiyədə istifadə olunan eyni səviyyədə dərmanlar bizdə də satılır. Oradakı dərman virusa qarşı daha effektivdir. Türkiyədən alınan dərman hərarəti azaldır, amma buradan aldığımız yox. Yaxşı olar ki, Səhiyyə komitəsi ilə birgə dərmanların keyfiyyəti ilə bağlı dinləmə keçirək”.

Haşiyə: Deputat R.Quliyevin haqqında danışdığı “Sincardi” diabet xəstələri üçün nəzərdə tutulub. İnsulindən asılı olmayan diabet (Tir 2) xəstələrində qlikemik indeksə nəzarəti yaxşılaşdırmaq üçün nəzərdə tutulub, təsir mexanizmi bir-birini tamamlayan iki hiroqlikemik dərman vasitəsini özündə birləşdirir.

Lakin məsələ burasındadır ki, ”Sincardi” qiymət və keyfiyyət baxımından istisna təşkil edən dərman deyil. Azərbaycanda həm qiymət etibarilə qonşu ölkələrlə müqayisədə çox baha satılan, həm də keyfiyyəti hətta tibb mütəxəssisləri tərəfindən şübhə altına alınan dərmanların siyahısı kifayət qədər uzundur.

Hətta iki il əvvəl başqa bir millət vəkili - Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov da etiraf eləmişdi ki, ölkədə insanlar dərmanların keyfiyyəti və qiymətindən çox narazıdır. Əmiraslanov qeyd eləmişdi ki, hətta qiymətlər qardaş Türkiyə ilə müqayisədə kifayət qədər yüksəkdir: ”Dərman preparatlarının qiyməti, keyfiyyəti və əldə olunması ilə bağlı xeyli problemlər var... Hesablama Palatası Səhiyyə Nazirliyində bu işlə məşğul olan qurumda artıq yoxlamalar keçirib və bizə təklif edib ki, bununla bağlı bizim komitə ilə müzakirələr keçirsinlər”.

Göründüyü kimi, hətta Milli Məclis üzvləri də vətəndaşların dərmanlarla bağlı narazılıqlarını bölüşürlər. Lakin maraqlısı odur ki, parlament üzvləri öz iradlarını elə deputat həmkarlarına bildirmək əvəzinə ümumi sözlərlə kifayətlənirlər. Məsələn, Rüfət Quliyev doğrudanmı ölkənin dərman bazarında iki deputatın - Kəmaləddin Qafarovla Cavanşir Feyziyevin həlledici söz sahibləri olmasından məlumatsızdır?

Əlbəttə, bu suala mənfi cavab vermək sadəlövhlük olardı. Elə isə haqlı iradlar səsləndirən Quliyev yaxşı olmazmı ki, dilə gətirdiyi həqiqətləri birbaşa Qafarova və Feyziyevə ünvanlasın? Belədə onun söylədikləri absurd təsir bağışlamazdı, əksinə, daha effektiv nəticə verərdi.

O da ayrı məsələdir ki, indiyədək ölkə vətəndaşları bəzi dərman preparatlarının həm baha satıldığı, həm də keyfiyyətsiz olduğu barədə mütəmadi şəkildə şikayətlərini dilə gətirirlər. Lakin Azərbaycanın dərman bazarının əsas fiqurları - Kəmaləddin Qafarovla Cavanşir Feyziyev yalnız adi insanların deyil, hətta ekspertlərin və medianın da sözügedən mövzuda tənqidlərini eşitməzdən gəlməyə üstünlük verirlər. Bu səbəbdən də ola bilsin Rüfət Quliyev tənqidlərini üstüörtülü dillendirmək qərarına gəlib.

İstənilən halda absurd mənzərədir: iki deputat bir problemin səbəbkarı qismində çıxış edir, digər deputatlar isə sanki söhbət onlardan getmirmiş kimi ümumi, mücərrəd tənqidlərlə kifayətlənirlər. Belədə haqqında danışılan problemin həlli ilə bağlı nəyə və necə ümid etmək olar?!

Onu da deyək ki, illərdən bəridir dərmanların qiymət və keyfiyyəti ilə bağlı məsələnin yoluna qoyulmaması bu sahəyə məsul qurumların da öz işlərinə qeyri-ciddi yanaşmasının nəticəsi sayıla bilər. Həmin qurumlar mövzuya səthi yanaşma ilə kifayətlənirlər - nə bahalıq barədə iradları qəbul edirlər, nə də keyfiyyətlə bağlı şübhələri... Vəziyyətdən ümumi, mücərrəd, gəlişi gözəl sözlərlə təkzib mətnləri yazaraq çıxmağa çalışırlar. Nəticədə isə heç nə dəyişmir - vətəndaşlar arasında illər əvvəl də dərman biznesi ilə məşğul olanların xaricdəki dərman istehsalçıları ilə sövdələşdiyinə dair fikirlər mövcud idi, indi də... İllər əvvəl də Azərbaycana dərman idxalı ilə məşğul olan şəxslərin aldıqları dərman preparatlarının qiymətcə aşağı olması üçün onun tərkibinə qatılan maddələrin miqdarını azaltdığı iddia olunurdu, indi də...

Əgər müvafiq qurumlar bu mövzuda ictimai etibarı qazansaydılar, onların məlum iddialarla bağlı standart məzmunlu təkziblərinə cəmiyyətdə inanan tapılardı. Bəlkə, düz demirik?!

***Sənan Mirzə***

12_27 IYUl-QARA.qxd 4/4/2024 11:02 PM Page 4



# Vaşinqtonun regiondakı maraqları zərbə ala bilər

## Siyasi şərhçi: "Bakı Ermənistanın silahlandırılması fonunda başlaya biləcək regional eskalasiyada ABŞ-ni Fransa ilə eyni öhdəlik nümayiş etdirməməyə səsləyir"

***"ABŞ Dövlət katibi Antoni Blinkenin Azərbaycan Prezidenti İlham Əliyevə zəng etməsi mövcud Vaşinqton-Bakı siyasi gərginliyinin həlli arayışları səylərinin tərkib hissəsidir. Halbuki, Bakı da, Vaşinqton da həll düsturlarını axtardığı zamanda Qərbdə Azərbaycan-Ermənistan sülh gündəliyinə neqativ təsir cəhdləri prosesi zədələyir".***



"Unikal" xəbər verir ki, siyasi şərhçi Aqşin Kərimov deyib ki, Vaşinqton bu zədələmə prosesinin tərkib hissəsinə çevrilir, yoxsa əsla aprelin 5-də keçiriləcək ABŞ-Avropa İttifaqı-Ermənistan sammitində maraqlı olmazdı. Onun sözlərinə görə, İlham Əliyev də ABŞ-nin mövqeyi ilə bağlı narahatlığını Blinkenin diqqətinə çatdırıb. Hərçənd ki, ABŞ baş diplomatı Əliyevi inandırmağa çalışıb ki, üçtərəfli görüş Azərbaycanın maraqlarına qarşı yönəlməyib: "Bunlara baxmayaraq, Blinkenin Əliyevə zəngi ABŞ-nin Azərbaycanla münasibətlərindəki xoşməramlı məqamların inkişaf etdirilməsi baxımından önəmlidir. Azərbaycanın isə şərti var: ABŞ Cənubi Qafqaz regionunda geosiyasi sima olmaq istəyirsə, Bakıya qarşı İrəvana dəstək vermək xəttindən qopmalı və qeyri-müəyyənliyini düzəltməlidir. Onsuz da, Azərbaycanla ABŞ arasında təhlükəsizlik və energetika sahəsində əlaqələr yüksələn xətlə inkişaf edir. Lakin ABŞ-ni Azərbaycanla münasibətlərdə qeyri-adekvatlıq məcrasına çəkməklə geosiyasi mübarizə dalğasının yeni mərhələsinə nail olmaq cəhdləri görünür. Bu mərhələni başlatmaq istəyən əsas oyunçu Fransadır və Paris regionda guya kollektiv Qərbin maraqlarından çıxış etdiyi görüntüsü yaradıb ABŞ-dən mümkün ssenarilərdə dəstək axtarır. Bunun özü Qərbin özündə belə, bölücü yanaşmadır, çünki Fransa regionda Ermənistan vasitəsilə "nümayiş" yaratmaq iddiası ilə elə NATO-nun maraqlarına toxunur".

Şərhçinin sözlərinə görə, o da bəllidir ki, NATO-nun əsas beyni ABŞ ilə Fransanın Ermənistanla əlaqədar mövqelərində oxşarlıqlar ola bilər: "Ancaq Fransa bu oxşarlıqları iki vasitə ilə Azərbaycana qarşı müqavimət oxuna çevirməkdə həvəslidir. Birincisi, Fransa Avropa İttifaqındakı hərbi və siyasi nüfuzundan istifadə edərək İttifaqı Azərbaycana qarşı tətikləyərək ABŞ-dən "kollektiv Qərbin dəstəyi" formatında kömək istəyir. İkincisi, Fransa Azərbaycanla ABŞ arasındakı mübahisələri şişirdib münasibətlərdə rezonans doğuracaq nəticələrə nail olmağı hədəfləyir. Azərbaycan strateji yanaşma və əhatəli analizlərlə bu nəticəyə gəlir ki, regionda Ermənistanın xeyrinə hərbi dəstək, hərbi infrastrukturun yaradılması sülh proqramını korlayır. Bakı başa düşür ki, bu, ABŞ-nin özünü də Rusiya ilə mübarizə həvəsinə salsa da, nəticədə Vaşinqtonun regiondakı maraqları zərbə ala bilər.

Buna görə də Əliyevlə Blinkenin danışığından bu nəticəni çıxarmaq olar ki:

- Azərbaycan ABŞ-ni öz maraqlarının işığında ən düzgün konstruktiv mövqeyə doğru çəkmək istəyir,
- Bakı Ermənistanın silahlandırılması fonunda başlaya biləcək regional eskalasiyada ABŞ-ni Fransa ilə eyni öhdəlik nümayiş etdirməməyə səsləyir,
- Həmçinin, vurğulayır ki, ABŞ regionda çoxtərəfli təhlükəsizlik yanaşmasını Azərbaycan-Ermənistan gündəliyində ikincinin tərəfini tutmaq formasında qurmamalıdır".

***S.Əli***



# Putin Rusiyada terror törədənlərin əsas məqsədini açıqladı

***"Crocus City Hall"da terror aktını sifariş edənlərin əsas məqsədi Rusiyanın birliyinə xələl gətirmək olub.***

"Unikal" xəbər verir ki, bu barədə Rusiya Prezidenti Vladimir Putin Müstəqil Həmkarlar İttifaqları Federasiyasının XII Qurultayında çıxışı zamanı deyib.

O, terrorun törədilməsində başqa məqsədlərin görünmədiyini bildirib: "İndi istintaqın verdiyi məlumata görə, Moskvada qanlı, dəhşətli terror aktını sifariş edənlərin əsas məqsədinin məhz bizim birliyimizi pozmaq olduğuna inanmaq üçün bütün əsaslarımız var. Görünən başqa məqsədlər yoxdur. Ancaq Rusiya cəmiyyətinin birliyini pozmaq məqsədi, xüsusən də müasir şəraitdə".

***Ağarza Elçinoğlu***

# Sahibə Qafarova Mövlud Çavuşoğlu ilə görüşüb

***Milli Məclisin sədri Sahibə Qafarova Türkiyə Böyük Millət Məclisinin NATO PA-da nümayəndə heyətinin rəhbəri Mövlud Çavuşoğlunun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.***



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən "Unikal"a verilən məlumata görə, görüşdə qardaş ölkələrimiz arasında münasibətlərin özünün ən yüksək səviyyəsində olduğu, Ulu Öndər Heydər Əliyevin "Bir millət, iki dövlət" şüarını rəhbər tutan Azərbaycan və Türkiyənin bütün məsələlərdə həmrəylik və qarşılıqlı dəstək nümayiş etdirdiyi diqqətə çatdırılıb. Qeyd olunub ki, prezidentlər İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan arasında qarşılıqlı hörmət və etimada əsaslanan qardaşlıq münasibətlərinin, onların siyasi iradəsinin və qətiyyətinin nəticəsidir ki, münasibətlərimiz müttəfiqlik səviyyəsinə çatıb. Bu gün Azərbaycanla Türkiyənin birgə fəaliyyəti, həyata keçirdiyi irimiqyaslı layihələrin regional və beynəlxalq səviyyədə əməkdaşlığa mühüm töhfələri qeyd edilib.

Görüşdə qeyd olunub ki, ölkələrimiz arasında münasibətlərin daha da genişlənməsində parlamentlərimiz də vacib rol oynayır. Tərəflər bu istiqamətdə mövcud olan əlaqələrin səviyyəsindən məmnunluqlarını qeyd ediblər. Vurğulanıb ki, qanunverici orqanlarımız parlament komitələri, dostluq qrupları və parlament aparatları səviyyəsində əməkdaşlıq həyata keçirirlər.

Spiker Sahibə Qafarova özünün Türkiyəyə rəsmi səfərlərini, həmçinin, TBMM sədri Numan Kurtulmuşla görüşlərini məmnunluqla xatırladıb və qarşılıqlı səfərlərin parlamentlərimiz arasında əlaqələrin yüksək səviyyəsinin göstəricisi olduğunu söyləyib. Görüşdə "Azərbaycan Respublikasının Milli Məclisi ilə Türkiyə Böyük Millət Məclisi arasında əməkdaşlıq haqqında" Sazişin Şuşa Bəyannaməsinin parlamentlərarası əməkdaşlığa dair bəndinin həyata keçirilməsi və Azərbaycan-Türkiyə müttəfiqlik münasibətlərinin parlament səviyyəsində də əks etdirilməsi baxımından mühüm bir mexanizm olduğu vurğulanıb.

Azərbaycanda olmaqdan məmnunluğunu bildirən Mövlud Çavuşoğlu bu il ölkəmizdə keçirilən növbədənkənar prezident seçkilərində Prezident İlham Əliyevin tarixi səs fərqi ilə qələbə qazanması münasibəti ilə təbriklərini çatdıraraq, deyib ki, bu qələbə Prezident İlham Əliyevin xalq qarşısındakı misilsiz xidmətlərinin, Qarabağ zəfərinin nəticəsidir.

Görüşdə parlamentlərimizin beynəlxalq platformalarda əməkdaşlığının hazırkı səviyyəsindən razılıq ifadə olunub. Qeyd edilib ki, parlamentlərimiz mühüm əməkdaşlıq istiqamətlərindən biri də ayrı-ayrı beynəlxalq parlament təşkilatlarındakı nümayəndə heyətlərimiz arasında onsuz da çox sıx olan əlaqələrin daha da gücləndirilməsi, ortaq mövqeyin formalaşdırılması, birgə fəaliyyətin təmin edilməsi üçün müntəzəm ünsiyyət kanallarının yaradılmasıdır. Mövlud Çavuşoğlunun bugünkü səfəri də hər iki parlamentin bu istiqamətdə əlaqələri gücləndirmək niyyətini əks etdirir.

Söhbət zamanı xüsusilə vurğulanıb ki, bu gün bəzi beynəlxalq təşkilatlarda ölkələrimizə qarşı ikili standartların şahidi oluruq. Ölkəmizə qarşı xüsusi qərəzliliyi ilə seçilən təşkilatlardan biri də Avropa Şurasının Parlament Assambleyasıdır. Milli Məclisin sədri Sahibə Qafarova deyib ki, bu gün AŞPA təəssüf ki, Mövlud Çavuşoğlunun prezident olduğu dövrdəki qurum deyil. Bu təşkilat çox dəyişib. Artıq AŞPA-da dəyərlər qalmayıb, təşkilat obyektivliyini itirib.

Söhbət zamanı regionda sabitliyin və təhlükəsizliyin təmin olunmasının da vacibliyi qeyd edilib. Mövlud Çavuşoğlu diqqətə çatdırıb ki, Azərbaycanın sabitliyi, inkişafı təkcə region üçün deyil, Avropa və Asiya üçün də əhəmiyyətlidir. O, çox təəssüflə bildirib ki, bu gün Fransa başda olmaqla, Ermənistana mənfi təsir edən ölkələr var. Lakin Azərbaycan tək deyil. Türkiyə sülhü dəstəkləyir və qardaş ölkə olaraq bundan sonra da Azərbaycanın yanında olmağa davam edəcək.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

# Vitali Balasanyanın Xankəndidən necə qaçdığı açıqlandı

***Xocalı qatillərindən olan Vitali Balasanyan İrəvanda Korrupsiyaya Qarşı Mübarizə Komitəsinə dəvət olunub.***

"Unikal" xəbər verir ki, bu barədə Erməni KİV məlumat yayıb.

Məlumata görə, Balasanyan və ətrafındakılardan Həkəri körpüsünü necə keçdikləri soruşulub. O, bir neçə dəfə dindirildikdən sonra Ermənistanın baş naziri Nikol Paşinyanla əlaqə saxlayıb və bildirib ki, o, hakimiyyət dəyişikliyi prosesində iştirak etmək niyyətində deyil və siyasi proseslərə qarışmaq istəmir: "Balasanyan Paşinyana deyib ki, o, Qarabağ erməniləri qayıdana qədər Ermənistanda gözləyəcək. Buna görə də o, Paşinyandan onu rahat buraxmağı xahiş edib. Bu vasitəçi söhbətdən sonra Balasanyan və onun yaxın dostları artıq prosesi həyata keçirən orqana dəvət olunmayıb".

Balasanyanın Ermənistana qaçdıqdan sonra heç bir ictimai çıxış etməməsinin səbəbi budur.

Balasanyanın Laçın dəhlizindən necə keçdiyinin bəzi təfərrüatları da məlum olub. O, sentyabrın 28-də Xankəndini tərk edərək Laçın dəhlizinə gedib. Həmin anda ona bildirilib ki, Azərbaycan tərəfi onun hərəkətindən artıq xəbər tutub. Bu səbəbdən Balasanyan maşından düşərək alternativ yollarla Ermənistana qaçmağa məcbur olub. Nəticədə o, Ermənistana yalnız oktyabrın ilk ongünlüyündə çatıb.

***Ağarza Elçinoğlu***

# "Azərbaycan COP29-a çox ciddi hazırlaşır" - İlham Əliyev



***Prezident İlham Əliyev Konqo Respublikasının Prezidenti Deni Sassu-Nqessonu COP29 tədbirində iştiraka dəvət edib.***

"Unikal" xəbər verir ki, bu barədə Prezident İlham Əliyev konqolu həmkarı ilə mətbuata bəyanatında bildirib.

Dövlətimizin başçısı qeyd edib: "Azərbaycan COP29-un prezidenti kimi bu tədbirə çox ciddi hazırlaşır və burada Konqo ilə ikitərəfli formatda və çoxtərəfli formatda əməkdaşlıq etmək hesab edirəm ki, məqsədəmüvafiq ola bilər".

# Ceyhun Bayramov Çavuşoğlu ilə görüşdü



***Xarici işlər naziri Ceyhun Bayramov Mövlud Çavuşoğlu ilə görüşüb.***

"Unikal" xəbər verir ki, bu barədə Azərbaycan XİN rəhbəri "X" platformasında bildirib.

"Bu gün Türkiyə Böyük Millət Məclisinin NATO PA-dakı nümayəndə heyətinin rəhbəri, qardaşım Mövlud Çavuşoğlu ilə faydalı görüşümüz baş tutdu. Müttəfiqlik münasibətlərimizin möhkəmləndirilməsi, çoxtərəfli əməkdaşlıq, postmünaqişə dövründə regional vəziyyətlə bağlı ətraflı fikir mübadiləsi apardıq", - Ceyhun Bayramov vurğulayıb.

# Ermənistan Azərbaycanla şərti sərhəddə dayaq məntəqələri qurur



***Ermənistan Azərbaycanla şərti sərhəddə hücum xarakterli dayaq məntəqələri qurur.***

"Unikal" xəbər verir ki, bunu əks etdirən görüntülər sosial şəbəkələrdə yayılıb.

Məlumata görə, görüntülərdə ermənilərin Naxçıvanla sərhəddə, eləcə də, Azərbaycanın Ermənistanla şərti sərhəd ərazilərində hücum xarakterli dayaq məntəqələrini qurması, müxtəlif istiqamətlərdə uzunmüddətli atəş nöqtələrini yaratması, fortifikasiya qurğularını inşa etməsi əskini tapıb.

Baş redaktor:
Zaur Əhməd

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:2000



# Türkiyə XİN-dən Ermənistana çağırış

***"Biz Ermənistanı mina sahələrinin dəqiq xəritələrini Azərbaycana verməyə çağırırıq".***

"Unikal" xəbər verir ki, bu barədə Türkiyə Xarici İşlər Nazirliyi məlumat yayıb.

XİN-in 4 aprel Beynəlxalq Minalardan Təmizləmə Məlumatlandırma və Dəstək Günü ilə bağlı bəyanatında deyilir ki, Türkiyə Azərbaycanın təhlükəsizliklə bağlı narahatlığını bölüşür.

***Ağarza Elçinoğlu***

# Azərbaycan Prezidentindən Qərbə mesaj: "Daxili işlərimizə müdaxilə qəbuledilməzdir"

***Dünən ABŞ Dövlət katibi Antoni Blinkenlə Prezident İlham Əliyev arasında telefon danışığı ilə əlaqədar ABŞ tərəfindən verilmiş mətbuat açıqlamasında qeyd olunur ki, telefon danışığı zamanı müzakirə edilən məsələlərdən biri də insan hüquqları olub.***

"Unikal" xəbər verir ki, Prezidentin Mətbuat Xidmətindən AZƏRTAC-a açıqlamasında bildirib ki, telefon danışığı əsnasında bir çox məsələlərə, o cümlədən bu məsələyə də toxunulub.



"Prezident İlham Əliyev tərəfindən bildirilib ki, insan hüquqları məsələsini bəhanə edərək Azərbaycanın daxili işlərinə müdaxilə cəhdləri tamamilə qəbuledilməzdir. Bir sıra Qərb ölkələrinin bu məsələ ilə bağlı ikili standartlara əsaslanan qərəzli açıqlamalarını qəbul etmirik. Bu xüsusda dövlətimizin başçısı Dövlət katibi Antoni Blinkenə Ermənistanda müxalifət nümayəndələrinin həbsi, hətta həbs müddətində ölüm hallarının olması, insan hüquqlarının pozulması hallarını xatırladıb və bu kontekstdə Qərb ölkələrinin səssizliyinin başadüşülən olmadığını, bu kimi faktların məhz ikili standartların bariz nümunəsi olduğunu qeyd edib. Prezident İlham Əliyev telefon danışığı zamanı, həmçinin tanınmış jurnalist Culian Assancın məhz jurnalist fəaliyyətinə görə uzun müddət fiziki və mənəvi işgəncələrə məruz qalması məsələsini bildirmişdir. Culian Assancın ABŞ-a ekstradisiya edilmək və edam olunmaq məsələsinin müzakirə edildiyini vurğulamışdır. Dövlətimizin başçısı onu da əlavə etmişdir ki, insan hüquqları məsələsinə təkcə lokal deyil, bütövlükdə qlobal kontekstdə baxılması zəruridir", - açıqlamada deyilir.

# "İtaliyanın yürütdüyü siyasət Fransaya nümunə olmalıdır" - Ayxan Hacızadə

***İtaliyanın xarici işlər və beynəlxalq əməkdaşlıq nazirinin müavininin verdiyi bu açıqlama ilk növbədə beynəlxalq hüququn təməl prinsip və normalarına hörmətin əlamətidir.***

Bu, eyni zamanda, ölkələrin daxili işlərinə müdaxilənin və Azərbaycanla Ermənistan arasında normallaşma və sülh prosesi kimi həssas məsələ ilə bağlı məsuliyyətsiz yanaşmadan çəkinilməsinin nə dərəcədə vacib olduğunu nümayiş etdirir.

"Unikal" xəbər verir ki, bu barədə Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Ayxan Hacızadə İtaliyanın Xarici İşlər və Beynəlxalq Əməkdaşlıq Nazirliyinin açıqlamasını şərh edərkən deyib.



"İtaliya tərəfinin həm münaqişə, həm də postmünaqişə dövründə bölgə üzrə sərgilədiyi siyasət və yanaşma daim balanslı olub. Bu ölkə tərəfindən beynəlxalq hüququn pozuntularını gözardına alan siyasətdən qaçınması bir daha İtaliya tərəfinin məsələdən daim agah olduğunu göstərib və Fransa kimi ölkələrin yürütdüyü destruktiv siyasətin nə dərəcədə əsassız və nəticəsiz olduğunu sübut edib. Hesab edirik ki, İtaliya tərəfindən yürüdülən bu siyasət başda Fransa olmaqla, bəzi Avropa ölkələrinə nümunə olmalıdır", - deyə o qeyd edib.

# Azərbaycan və Monteneqro XİN arasında məsləhətləşmələr oldu

***Monteneqronun paytaxtı Podqoritsa şəhərində Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi (XİN) və Monteneqronun Xarici İşlər Nazirliyi arasında ilk konsulluq məsləhətləşmələri keçirilib.***

"Unikal" xəbər verir ki, bu barədə Azərbaycan XİN məlumat yayıb. Bildirilib ki, məsləhətləşmələrdə Azərbaycan nümayəndə heyətinə Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Konsulluq İdarəsinin rəisi Emil Səfərov, Montenegro nümayəndə heyətinə isə Monteneqronun Xarici İşlər Nazirliyinin Konsulluq məsələləri üzrə Baş Direktoratlığının direktoru vəzifəsini icra edən xanım İvana Dokanoviç rəhbərlik edib.



Görüşdə, həmçinin Azərbaycanın Serbiyadakı, eyni zamanda, Monteneqro və Şimali Makedoniyadakı səfiri Kamil Xasiyev iştirak edib.

Konsulluq məsləhətləşmələri zamanı Azərbaycan Respublikası ilə Monteneqro arasında konsulluq sahəsində əməkdaşlığın cari vəziyyəti və inkişaf perspektivləri, o cümlədən sahə üzrə yeni ikitərəfli sənədlərin imzalanması imkanları nəzərdən keçirilib.

Görüş zamanı nümayəndə heyətləri iki ölkə vətəndaşlarının qarşılıqlı səfərlərinin sadələşdirilməsi istiqamətində əməkdaşlığın davam etdirilməsinin vacibliyini vurğulayıblar.

Məsləhətləşmələr çərçivəsində iki ölkənin daxili işlər, miqrasiya, əmək və sosial müdafiə sahələri üzrə səlahiyyətli dövlət orqanları arasında əməkdaşlığın inkişaf etdirilməsi təklifləri üzrə fikir mübadiləsi aparılıb.

Tərəflər arasında konsulluq məsləhətləşmələrinin növbəti mərhələsinin 2025-ci ildə Bakı şəhərində keçirilməsinə dair razılıq əldə olunub.

12_27 IYUl-QARA.qxd 4/4/2024 11:03 PM Page 6



# Azərbaycan və Konqo prezidentləri mətbuata bəyanatlarla çıxış ediblər

***Aprelin 4-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Konqo Respublikasının Prezidenti Deni Sassu-Nqesso mətbuata bəyanatlarla çıxış ediblər.***

"Unikal" xəbər verir ki, əvvəlcə Azərbaycan Respublikasının Prezidenti bəyanatla çıxış etdi.

**Prezident İlham Əliyevin bəyanatı**

-Hörmətli cənab Prezident. Hörmətli qonaqlar, xanımlar və cənablar.

İlk növbədə, cənab Prezident, bir daha Sizi Azərbaycanda səmimiyyətlə salamlayıram, xoş gəlmisiniz. Sizin səfəriniz tarixi səfərdir. İlk dəfədir ki, Konqo Respublikasının Prezidenti Azərbaycana rəsmi səfər edir. Artıq demək mümkündür ki, səfərin çox gözəl nəticələri olacaq.

Biz indicə əməkdaşlıq haqqında Bəyannamə imzalamışıq. Bu, çox önəmli və sanballı bir sənəddir, bizim əməkdaşlığımızın perspektivlərini müəyyən edəcək. Əminəm ki, Konqo ilə Azərbaycan arasında güclü dostluq əlaqələri yaradılacaqdır.

Bu gün həm təkbətək görüş əsnasında, həm də ki, heyətlərin iştirakı ilə görüşdə bir çox önəmli məsələlər müzakirə olundu, fikir birliyi ifadə edildi. Bizim siyasi əlaqələrimizin bundan sonra uğurla inkişaf edəcəyinə heç kimdə şübhə yoxdur və bu gün imzalanmış əməkdaşlıq haqqında Bəyannamə bunu bir daha təsdiq edir. Biz bundan sonra da beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı dəstək əsasında qarşılıqlı fəaliyyətimizi davam etdirəcəyik, xüsusilə BMT-də və Qoşulmama Hərəkatı çərçivəsində. Qoşulmama Hərəkatına bu ilin yanvar ayına qədər 4 il uğurla sədrlik etmiş Azərbaycan Konqonun dəstəyini hər zaman hiss etmişdir. Bizim təşəbbüslərimizə Konqo hər zaman öz dəstəyini vermişdir və bunun nəticəsində sədrliyimiz dövründə Qoşulmama Hərəkatının institusional inkişafı da təmin edilmişdir. Parlament Şəbəkəsi, Gənclər və Qadınlar platformaları məhz sədrliyimiz dönəmində yaradılmışdır. Bu gün Qoşulmama Hərəkatı əvvəlki dövrlərə nisbətən daha güclü təşkilatdır. Bu təşkilatın dünya miqyasında və dünyada gedən proseslərdə oynadığı rolunun artırılması hesab edirəm ki, hamımızın marağındadır. Qoşulmama Hərəkatı BMT-dən sonra ikinci böyük təsisatdır, 121 üzvü var. Biz bu təsisatın, bu hərəkatın gələcək inkişafı ilə bağlı geniş fikir mübadiləsi aparmışıq.

Onu da bildirməliyəm ki, Qoşulmama Hərəkatına sədrlik dövründə bizim prioritetlərimizin içində neokolonializmə qarşı mübarizə məsələləri durmuşdur, bu gün də bu belədir. Bizim xarici siyasət istiqamətləri arasında bu sahə xüsusi önəm daşıyır. Bir müddət bundan əvvəl Azərbaycanda Bakı Təşəbbüs Qrupu yaradılmışdır. Bu, beynəlxalq qurumdur. Bu qurumun əsas məqsədi kolonializmin, yəni müstəmləkəçiliyin yeni təzahürlərinə qarşı mübarizə aparmaq və bu gün müstəmləkəçilikdən əziyyət çəkən xalqları dəstəkləmək, o xalqların hüquqi əsaslar üzərində azadlığa qovuşmasını təmin etməkdir. Bakı Təşəbbüs Qrupu bu gün dünya miqyasında böyük hörmətə malik olan qurumdur və yenə də deyirəm ki, bu qurumun nəticələri göz qabağındadır.



Biz bu gün təbii ki, iqtisadi sahədə də əməkdaşlıq haqqında geniş fikir mübadiləsi aparmışıq. Nümayəndə heyətlərinin üzvlərinə konkret tapşırıqlar verilmişdir. Azərbaycan Konqoda bir çox investisiya layihələrində iştirak etmək fikrindədir, ilk növbədə, kənd təsərrüfatı sahəsində. Bərpaolunan enerji sahəsində, energetika sahəsində, mədəniyyət və digər sahələrdə əməkdaşlıq üçün çox gözəl perspektivlər var. Bu gün müzakirə aparıldı, müvafiq göstərişlər verildi və əminəm ki, gələcək aylar ərzində bizim nümayəndələrimiz bir-biri ilə sıx təmasda olacaqlar.

Onu da bildirməliyəm ki, rəsmi səfər ərəfəsində səfəri yaxşı hazırlamaq və yaxşı nəticələrə nail olmaq üçün qarşılıqlı surətdə Konqodan Azərbaycana, Azərbaycandan Konqoya nümayəndə heyətlərinin səfərləri də təşkil edilmişdir. O səfərlər də göstərdi ki, bizim strateji əməkdaşlığımız üçün çox gözəl zəmin var.

Bir məsələ də bu gün müzakirə edildi. Cənab Prezident xatırladı ki, vaxtilə sovet dövründə Konqodan olan tələbələr Azərbaycanda ali məktəblərdə təhsil almışlar, biz bu ənənəni bərpa etmək istəyirik və müvafiq göstərişlər verildi.

Bir sözlə, mən deyəndə ki, bu səfər tarixi səfərdir, sadəcə, ona görə yox ki, bu, ilk səfərdir. Hesab edirəm ki, məzmun, mahiyyət nöqteyi-nəzərindən də bu səfəri tarixi səfər adlandırmaq olar. Ölkələrimiz arasındakı əlaqələrdə yeni səhifə açılır. Biz öz siyasi iradəmizi ortaya qoymuşuq və əminəm ki, əldə edilmiş bütün razılaşmalara birgə səylərlə çatacağıq.

Mən bu gün cənab Prezidenti COP29 tədbirində iştirak etmək üçün dəvət etmişəm və nümayəndə heyətlərinin üzvlərinə də göstəriş verildi ki, bu məsələ ilə bağlı da ciddi əməkdaşlıq yaradılsın. Azərbaycan COP29-un prezidenti kimi bu tədbirə çox ciddi hazırlaşır və burada Konqo ilə ikitərəfli formatda və çoxtərəfli formatda əməkdaşlıq etmək hesab edirəm ki, məqsədəmüvafiq ola bilər.

Bir daha hörmətli cənab Prezident, Azərbaycana xoş gəlmisiniz. Sizə cansağlığı, xalqınıza daim firavanlıq və rifah arzulayıram. Sağ olun.

***

Sonra Konqo Respublikasının Prezidenti bəyanatla çıxış etdi.

**Prezident Deni Sassu-Nqessonun bəyanatı**

-Cənab Prezident.

Hörmətli dostlar, media nümayəndələri.

Cənab Prezident bir az əvvəl tarixi məqamlardan danışdı və bu, həqiqətdir. Biz Azərbaycan ilə Konqo arasında əlaqələrdə tarixi anlar yaşayırıq. Mən Prezidentə səmimiqəlbdən təşəkkür etmək istərdim ki, bizi dəvət edərək bu rəsmi səfəri reallaşdırmaq üçün bu şəraiti yaradıb. Bu səfər bizə bu ölkənin gözəlliyini, onun iqtisadi inkişafını, Bakı şəhərinin gözəlliyini görmək imkanı verdi. Cənab Prezident, mən bu dəvətə görə Sizə təşəkkür etmək istərdim.

Prezident bizə Konqo ilə Azərbaycan arasında bütün sahələrdə bu gözəl əməkdaşlıq səhifəsini yaratmaq imkanını verdi. Hesab edirəm ki, Prezident bir az əvvəl apardığımız danışıqların bir sıra aspektlərini çox yaxşı şərh etdi. Mən əlavə etmək istərdim ki, biz xüsusilə Qoşulmama Hərəkatındakı sədrliyi zamanı Prezidentin liderliyini alqışladıq. Həmçinin biz Azərbaycanın bu yaxınlarda digər ağır mübarizə sahəsində - iqlim dəyişiklikləri sahəsində oynayacağı rolu alqışlayırıq, çünki Azərbaycan COP29-a ev sahibliyi edəcək. Biz artıq ölkələrimiz arasında qurulmuş əlaqələri alqışlayırıq və Azərbaycanı COP29-a hazırlıq çərçivəsində də alqışlayırıq. Biz Azərbaycan rəsmilərini dəvət etdik ki, iqlim dəyişikliklərinə qarşı mübarizədə ölkəmizin yanında olsun. Biz Prezidentə Konqoda, Brazzavildə təşkil etdiyimiz dünyanın ən böyük üç tropik meşə hövzəsi - Amazoniya, Cənub-Şərqi Asiyada Borneo Mekonq və Konqo hövzəsi sammitində güddüyümüz məqsədlər barəsində məlumat verdik. Bu sammit ötən ilin oktyabrında keçirilib və biz Prezidentə yalnız bu sammitin uğuru barəsində məlumat verə bilərik. Ondan sammitin nəticələrini nəzərə almasını ancaq xahiş edə bilərik, çünki bu il Azərbaycan COP29-a ev sahibliyi edəcək.

Biz, eyni zamanda, bu il iyulun 2-3-də Brazzavildə keçiriləcək Afrika və Qlobal Meşəsalma Onilliyi tədbiri barədə məlumat verdik. Bu, Şarm-əl Şeyxdə keçirilmiş COP zamanı Konqo tərəfindən irəli sürülmüş təşəbbüsdür. Biz Afrika və Qlobal Meşəsalma Onilliyi ideyasını irəli sürdük. Bu ideyanı konkretləşdirmək, bu layihəni reallaşdırmaq üçün Afrika İttifaqı, BMT və Konqo konfrans təşkil edəcək. Biz COP29-un təşkili ilə məşğul olan Azərbaycan rəsmilərini bu ideyanın reallaşdırılması və sonra onun Nyu-Yorkda BMT-nin Baş Assambleyasının növbəti sessiyasında qəbul olunması üçün iyulda bizə qoşulmağa dəvət etdik.

Prezident tərəfindən digər əməkdaşlıq məsələlərinə də toxunuldu. Karbohidrogen, kənd təsərrüfatı, mədəniyyət, informasiya, bərpaolunan enerji sahələrində iki ölkənin mühüm potensialının olduğu qeyd edildi. Biz öhdəlik götürdük ki, ölkələrimiz arasında qeyd olunan bütün sektorlarda bu əməkdaşlıq inkişaf etsin. Prezident də dedi, biz öz nümayəndələrimizə təlimat verdik ki, bu layihələri yekunlaşdırmaq üçün birgə işləsinlər. Biz danışıqlarımızın nəticələrindən çox məmnunuq. Burada bizə göstərilən səmimi və dostcasına qəbula görə çox xoşbəxtik.

Biz inanırıq, düşünürük ki, burada ölkələrimiz arasında əməkdaşlıq istiqamətində çox yaxşı addım atdıq və biz mütləq qalib olacağıq. Ona görə də mən cənab Prezidentdən xahiş etdim ki, Konqoya dostluq səfəri etməklə bizi şərəfləndirsin. Mən ona dəvətnamə göndərəcəyəm və biz Prezidenti ölkəmizdə qəbul etməkdən şərəf duyacağıq. Bu da başqa bir tarixi hadisə olacaq. Prezidentin bizim ölkəmizə səfəri məhsuldar əməkdaşlığımızda növbəti addım olacaq.

Mən bizim tərəfimizdən ünvanlanan bütün sorğulara müsbət cavab verdiyinə görə Prezidentə təşəkkürümü ifadə edirəm. Bildirmək istərdim ki, biz beynəlxalq səviyyədə - istər BMT, istər Qoşulmama Hərəkatı çərçivəsində, istərsə də digər sahələrdə birlikdə mübarizə aparacağıq. Çünki söhbətimiz zamanı fikirlərimizin bir-biri ilə yüksək səviyyədə üst-üstə düşdüyünü gördük. Prezident və mənim tərəfimdən imzalanan Bəyannamə mühüm mərhələdir. Fikrimcə, bu, gələcək aylarda və illərdə ölkələrimiz arasında bütün sahələrdə fəaliyyəti istiqamətləndirəcək.

Sonda mən bu qəbula və keçirdiyimiz görüşlərin uğurlu olmasına görə Prezidentə təşəkkürümü bildirirəm.

12_27 IYUI-QARA.qxd 4/4/2024 11:03 PM Page 7





# Mayda kimlər əfv olunacaq...

***Aprelin 3-də Azərbaycan Prezidenti yanında Əfv Məsələləri Komissiyasının 2024-cü ildə ilk iclası keçirilib. İclasda komissiyaya daxil olan 100-dən artıq müraciətə baxılıb. Bu il komissiyan 700-dən çox müraciətə baxacaq.***

Müxtəlif hüquq müdafiəsi üzrə QHT-lər də komissiyaya öz siyahılarını təqdim edirlər.

Belə QHT-lərdən biri də Dilarə Əliyeva adına Azərbaycan Qadın Hüquqlarını Müdafiə Cəmiyyətidir.

"Unikal" xəbər verir ki, modern.az QHT ilə neçə nəfərdən ibarət siyahı təqdim etdiklərini öyrənmək üçün əlaqə saxlayıb. Cəmiyyətin sədri, hüquq müdafiəçisi Novella Cəfəroğlu Əfv Komissiyasına 40 nəfərdən ibarət siyahı təqdim etdiklərini deyib: "Siyahıda 40-a yaxın adamın adını qeyd etmişik. Orada blogerlər, jurnalistlər, ömürlüklər də var. Qubad İbadoğludan tutmuş bir çox şəxslərin də adını siyahıya əlavə etmişik. Hansıları buraxarlar, buraxarlar. Çox istərdik ki, bu il siyasi motivlərlə tutulduğu iddia olunan şəxslərin hər biri buraxılsınlar. Beləliklə canımız Avropa Birliyinin, ABŞ-nin təhdidindən qurtulsun".

Qeyd edək ki, bu ilin may ayında əfv sərəncamının imzalanması gözlənilir.

## Zəngəzur dəhlizinin açılmasının hər kəsə faydası olacaq



***Zəngəzur dəhlizinin açılmasının, əlbəttə ki, hər kəsə faydası olacaq.***

"Unikal" xəbər verir ki, bu fikirləri Türkiyə Böyük Millət Məclisinin NATO PA-dakı nümayəndə heyətinin rəhbəri Mövlud Çavuşoğlu Şəhidlər xiyabanı və Türk Şəhidliyini ziyarəti zamanı jurnalistlərə açıqlamasında deyib.

"Bu dəhlizin açılması həm bölgə, eləcə də Ermənistanın özü üçün ciddi fayda vəd edir. Bu mənada biz Zəngəzur dəhlizinin açılmasını dəstəkləyirik" - o qeyd edib.

## Kəlbəcərdə zəlzələ oldu

***Kəlbəcər rayonu ərazisində zəlzələ olub.***



Bu barədə "Unikal"a Respublika Seysmoloji Xidmət Mərkəzindən məlumat verilib. Zəlzələlərin tədqiqatı bürosunun məlumatına əsasən, Daşkəsən st-dan 49 km cənubda, Kəlbəcər ərazisində zəlzələ qeydə alınıb.

Zəlzələnin maqnitudası 3.2, dərinliyi 10 km olub. Zəlzələ hiss olunmayıb.

# "Prezidentin səlahiyyəti var ki, vaxtından əvvəl seçkiləri çağırsın"

## Siyavuş Novruzov: "Seçki belə prosesdir ki, bir seçki bitən kimi digərinə hazırlaşmalısan"

***Milli Məclisin Regional məsələlər komitəsinin sədri, deputat Siyavuş Novruzov "Unikal"a müsahibə verib. O, növbədənkənar parlament seçkilərinin keçirilə biləcəyindən, müəllim və həkimlərin pensiya yaşından, Ermənistan-ABŞ-Avropa İttifaqının üçtərəfli görüşünün məqsədindən və başqa məsələlərdən danışıb.***

***-Siyavuş müəllim, bu il parlament seçkilərinin növbədənkənar keçiriləcəyi ilə bağlı fikirlər səsləndirilir. Siz necə düşünürsüz, növbədənkənar parlament seçkiləri olacaq?***

-Bu il Azərbaycanda seçki ilidir. Dekabr ayında bələdiyyə seçkiləri keçiriləcək. Konstitusiyaya uyğun olaraq parlament seçkiləri 2024-cü ilin noyabrın birinci həftəsinin bazar gününə düşür. Ölkəmizdə parlament seçkilərinin vaxtından əvvəl keçirilməsi nümunələri var. Həmçinin, Seçki Məcəlləsində belə bir müddəa mövcuddur ki, istənilən vaxt müxtəlif seçkilərin irəli və ya geri çəkilməsi mümkündür. Qanunvericilik buna icazə verir. Burada söhbət parlamentin hansısa iş fəaliyyətindən getmir. Bu, taleyüklü məsələlərə bağlı ola bilər ki, üst-üstə düşməsin. Azərbaycan müstəqillik əldə etdikdən sonra heç vaxt bütün ölkə ərazisində prezident seçkiləri keçirilməmişdi. Suverenliyimizi tam təmin edəndən sonra ölkəmizin bütün ərazisində ilk olaraq prezident seçkiləri keçirilməli idi. Prezidentin səlahiyyəti var ki, vaxtından əvvəl prezident seçkiləri çağırsın. Suveren Azərbaycanın ərazisində azad, ədalətli və demokratik seçki oldu. Bunun özü nümunədir ki, bundan sonra Azərbaycanın ərazisində növbəti parlament seçkiləri keçirilsin. Burada söhbət parlamentin işi ilə bağlı deyil, ümumi seçki sistemində olan vəziyyətlə əlaqədar ola bilər ki, vaxtından əvvəl parlament seçkisi keçirilsin. Hələ bu proses başlamayıb. Seçki belə prosesdir ki, bir seçki bitən kimi digərinə hazırlaşmalısan. Bəziləri deyir ki, qapımı döyüb desinlər filan vaxtda seçkiyə gedəcəyik, gör nə edirsən. Dəfələrlə şahidi olmuşuq ki, bəzi özünü ana müxalifət adlandıranlar seçki müddətinin iki ayından 15 gün gedib, amma onlar dairədə namizədini müəyyənləşdirə bilməyib. İmza yığıb çatdıra bilmir, başlayır ki, bu düzgün deyil, seçkini niyə vaxtından qabaq çağırdılar və s. Əslində müxalifət partiyaları seçkinin vaxtından əvvəl keçirilməsinə həmişə tərəfdar olublar. Bunlar elə bilirlər kimsə gəlib qapılarını döyüb və xahiş edəcəklər ki, ölkədə seçki keçirilir, gəlin görün nə edirsiz.

***-Parlamentin son iclasında siz də bu barədə danışdız. Müəllim və həkimlərdən müraciət edənlər olur ki, 65 yaşdan sonra da işini davam etdirmək istəyir. Bu şəxslərin pensiya yaşına çatdıqdan sonra işini davam etdirməsi məsələsinə baxıla bilərmi?***

-Seçicilərimizlə görüşəndə onların bu barədə fikrini öyrənirik və həmin münasibət əsasında danışırıq. Burada söhbət əməkhaqqından getmir. Bu insan həmişə işləyib və buna öyrənib. Hər səhər evdən çıxıb məktəbə gedərək dərs deyib. Eyni zamanda müəllim həmkarları ilə ünsiyyətdə olurlar. Bu onun yaşamasıdır, cəmiyyət üçün lazımlılığının sübutudur. Bizdə hələ yaşlı nəsil üçün klublar formalaşmayıb ki, orada müəyyən müzakirələr aparsınlar. Bu olsa idi, təqaüdə çıxdıqdan sonra orada oturub cəmiyyət üçün lazım olduğunu bir daha ortaya qoyacaqdı. Amma təqaüdə çıxdı, xudahafiz, bu adam getdi. Bəlkə adam bundan sonra 20 il yaşayacaq. Bu illər ərzində təqaüdünü alıb, səhər yuxudan durub həyətdə, parkda gəzib gəlməlidir. Bir də gözləsin ki, əzrayıl nə vaxt gəlib qapısını döyüb aparacaq. Bizim savadlı müəllim və həkimlərimiz var. Onların savadından, biliyindən istifadə etmək lazımdır. Elə sahə var ki, orada çalışan şəxs 45, 50 və 55 yaşında təqaüdə çıxır. Ona görə ki, ağır sahədə çalışır və buna görə də təqaüdə çıxmaları tez olur. Məsələn, aviasiyada işləyənlər 45 yaşında təqaüdə çıxırlar. Çünki hər uçuş onlar üçün stressdir. Bunlar qanunvericilikdə nəzərdə tutulub. Amma müəllimlər, həkimlər var ki, pensiya yaşına çatdıqdan sonra da işləmək istəyir. İnsan müəyyən yaşa çatdısa, pensiyaya çıxmaq istəyirsə, çıxsın, qalıb işləmək istəyirsə, işini davam etdirsin.

***-Milli Məclisin iclaslarında danışılan məsələlərdən biri də müharibə veteranlarına verilən müavinətin artırılması ilə bağlıdır. Bu müavinətin artırılması gözlənilirmi?***

-Bilirsiz ki, büdcənin dürüstləşməsi olur. Orada büdcənin yığımına baxılacaq. Ötən il 6 ayda büdcəyə 3 milyard manat əlavə vəsait yığılmışdı. Həmin vəsaiti işğaldan azad olunmuş ərazilərin bərpasına, silahlı qüvvələrə yeni texnikaların alınmasına və sosial təminatın yaxşılaşdırılmasına ayırdıq. Bu il baxıb görək nə olacaq, bir daha bu məsələyə toxunacayıq.

***-Məlum olduğu kimi, aprelin 5-də Brüsseldə Ermənistan-ABŞ-Avropa İttifaqı üçtərəfli görüş keçirəcək. Bu görüşü necə qiymətləndirirsiz?***

-Bunu düzgün görüş hesab etmirəm. Bu, qızışdırma xarakteri daşıyan görüşdür. Bunun özü Ermənistan üçün ciddi problem yaradır. Ermənistan-Rusiya münasibətləri çox gərgindir. Həmin görüş isə odun üzərinə bir az da benzin tökməkdir. Digər tərəfdən, Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin müzakirəsinin getdiyi bir vaxtda Ermənistanın çağırılması və Azərbaycanın dəvət edilməməsi, Cənubi Qafqaza aid hər hansı bir məsələnin müzakirə olunmaması separatizmdir. Orada tək Ermənistanın məsələsi müzakirə olunacaqsa, əlbəttə, hər hansı təşkilat istənilən ölkəni dəvət edə bilər. Lakin Cənubi Qafqazda sülh, Ermənistan-Azərbaycan arasında hər hansı sülh müqaviləsinin imzalanması və digər məsələlərə toxunulacaqsa, burada Azərbaycanın rəyi olmalıdır. Bu gün regionda əsas söz sahibi Azərbaycandır. Hesab edirəm ki, bu görüş təxribat xarakterlidir və nəticəsi bəllidir. Bir müddət əvvəl Avropanın müşahidəçiləri, əslində isə kəşfiyyatçıları Ermənistan-Azərbaycan sərhəddində bir neçə ay müşahidə apardılar. İndi orada səngərlərin tikilməsinə başlayıblar və texnika yığırlar. Onlar hər hansı təxribat törətməyə çalışacaqlar ki, Azərbaycan buna qarşı silahdan istifadə etsin və bunlar məsələ qaldırsınlar. Mütəmadi olaraq Avropa, ABŞ mətbuatında və sapı özümüzdən olan baltalar, erməni qanı olanlar, ermənidən pul alıb xidmət edən blogerlər, burada olan siyasi partiya rəhbərləri yalandan məsələ qaldırırlar ki, Azərbaycan Zəngəzura hücum edəcək. Bununla dünya ictimaiyyətinə çatdırırlar ki, guya Azərbaycan tam razılaşmamış sərhədlərdə müharibə aparmağa hazırlaşır. Bunlar hamısı təxribatdır.

***-Siz də qeyd etdiniz ki, Ermənilər şərti sərhəddə texnika yığırlar və son günlər bəzi istiqamətdə atəşkəsi pozurlar. Onlar hər hansı təxribat törətsə, cavabı necə olacaq?***

-Naxçıvana atəş açmağa başlayıblar. Bunlar hamısı təxribatdır. Azərbaycanın güclü ordusu var və təxribatların qarşısı alınacaq. Fransanın 5-6 konserv qabı verməsi və yaxud Hindistandan ikinci nəsil raketlərin gətirilməsi ilə Ermənistan heç bir şey edə bilməyəcək. 44 günlük Vətən müharibəsi və antiterror əməliyyatlarından sonra Azərbaycanın ərazi bütövlüyü, suverenliyi bərpa olundu. Bununla yanaşı, Ermənistana elə bir zərbə vurulub ki, onlar bundan sonra 20 il heç bir ölkə ilə müharibə apara bilməzlər.



***Anar Kəlbiyev***

12_27 IYUI-QARA.qxd 4/4/2024 11:03 PM Page 8



# Fəxri Kazımova ağır ittihamlar

## Sabiq deputatın oğlu güzəştli ipoteka kreditlərini kimə ayırır?

***Yola salmaq üzrə olduğumuz həftə Milli Məclisdə "İpoteka haqqında" qanuna təklif edilən dəyişikliyin müzakirəsi zamanı parlamentin Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov ilginc fikirlər səsləndirib.***

"Yalnız 3 jurnalist güzəştli ipoteka krediti alıb" deyən Siyavuş Novruzov əlavə edib ki, dövlət başçısı istəyir ki, hər bir vətəndaş yaxşı yaşasın və ipoteka kreditindən faydalana bilsin: "Hazırda isə ipoteka kreditindən yalnız dövlət qulluğunda çalışan faydalana bilir. Digər şəxslərin bu kreditlərdən faydalanmağı çətin məsələdir. Bənna, zərgər, dülgər və digərləri ipoteka krediti ala bilmir. Həm də bunlar kiçik və orta sahibkarlıqla məşğul olan insanlardır. O cümlədən yalnız 3 jurnalist güzəştli ipoteka krediti alıb . Bizdə kifayət qədər jurnalistlər var və kifayət qədər əmək haqqı alır. Adam var, elə 20 ildir eyni saytda işləyir, amma ipoteka ala bilmir. Şəhərdə və kənddə çalışan üçün də ipoteka kreditlərinin şərtlərində fərq olmalıdır. Elə olmalıdır ki, vətəndaş, gənc ailə, müəllim kənddə yaşaya bilsin".

Xatırladaq ki, Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanəti Fondunun vastəsi ilə verilən güzəştli ipoteka kreditlərinin maksimum məbləği 150 000 AZN, minimum məbləği isə 100 000 AZN-dir. Bu kreditlərin geri qaytarılması üçün minimum müddət 25 il, maksimal müddət isə 30 il nəzərdə tutulub. Minimal ilkin ödəniş 10, maksimal ilkin ödəniş isə 15%-dir.

Lakin İpoteka və Kredit Zəmanəti Fondunun qoyduğu şərtləri nəzərə alsaq, məlum təbəqələrin nümayəndələrinin həmin şərtlər altında bu kreditləri alması kifayət qədər əlçatmazdır. Elə deputat Siyavuş Novruzovun arxada qalan müddətdə vur-tut 3 jurnalistin güzəştli ipoteka krediti ala bilməsi barədə dedikləri də həmin fikri təsdiqləyir. Üstəlik, ipoteka kreditləri üzrə güzəştlərdən istifadə etmək hüququ tanınan şəxslərin maddi imkanları nəzərə alındıqda ortaya suallar çıxır: bir halda ki, həmin şəxslər ilkin 10-15 min manat ödəmək iqtidarındadırlar, onda söhbət hansı güzəştdən gedir? Digər tərəfdən, həmin kreditləri əldə etmiş şəxslərin aylıq orta hesabla 500 manat ödəməsi lazımdır. Ən əsası, həmin şəxsin rəsmi əməkhaqqı 1500 manatdan çox olmalıdır ki, bu maaş ölkə əhalisinin neçə faizində var, bax, bu ağır sualdır. Azərbaycanda hər ay bu məbləği ödəmək iqtidarında olan bir jurnalistin, yaxud elmi işçinin varlığına İpoteka və Kredit Zəmanəti Fondu hansı məntiqlə qənaət gətirib?

Hələ biz onu demirik ki, qoyulmuş şərtləri ödəmək iqtidarında olduğunu düşünən şəxslərin müraciətlərinə obyektiv baxıldığı yönündə də ciddi şübhələr var.

Bir sözlə, Siyavuş Novruzovun iradları güzəştli ipoteka kreditləri ilə bağlı acı reallığın yumşaq şəkildə dilə gətirilməsidir. Məsələyə dərindən yanaşdıqda isə həqiqət millət vəkilinin söylədiklərindən daha acıdır.

Üstəlik, İpoteka və Kredit Zəmanəti Fondunun rəhbərliyi hətta Milli Məclisin üzləri səviyyəsində dilə gətirilən iradlar qarşısında susqunluq nümayiş etdirməyə üstünlük verir. Maraqlıdır, niyə? Yoxsa adıçəkilən qurumun rəhbəri, eyni zamanda sabiq deputat Xanhüseyn Kazımlının oğlu olan Fəxri Kazımov susmağın razılıq əlaməti olduğu barədə müdrik atalar sözündən xəbərsizdir?!



Sosioloq Elçin Bayramlı hesab edir ki, ipotekanın Azərbaycan əhalisinə heç bir aidiyyatı yoxdur.

"Bu ipoteka adlanan sistemin Azərbaycan əhalisinə heç bir aidiyyatı yoxdur. Yəni nəyinki az imkanlı təbəqələr, heç orta təbəqənin belə ipoteka götürmək imkanları yoxdur. Azərbaycanda orta əmək haqqı məlumdur, rəsmi göstəricilərə görə 800-900 manat civarındadır. Bu da ailənin güclə dolanmasını təmin edə bilər. Bu ipoteka xalq üçün deyil. Bu sadəcə əhalinin 5-10% imkanlı təbəqənin ev almasını şərtləndirən sistemdir. Müxtəlif ölkələrdə sosial evlər layihəsi var. Bizdə də sosial evlər elə bu formada oldu. Adi insanların bunu almaq imkanı yoxdur. Faizlər, şərtlər, tələblər çox yüksəkdir. Nəticədə də elə ölkədə evləri bir qrup imkanlı şəxslər alır. Onlar onlarla, yüzlərlə evlər alır və bunu biznes məqsədi üçün istifadə edirlər. Məsələn, kirayə verirlər. Nəyinki gənc ailələr görürsən ki, 20-40 illik ailələr belə kirayələrdə yaşayır və heç vaxt ev ala bilmir. Bugünkü reallıqda praktiki olaraq bu mümkün deyil, çünki dünyada ən baha evlər Azərbaycandadır. Baha deyilərkən pul nisbətində götürülmür. Ola bilər qiymət nisbətində bizdən də baha ölkələr var. Amma orada pensiya məbləğinə nəzərən hər şey belə götürülməlidir. Yəni vətəndaş neçə aylıq maaşına ev ala bilir. Məsələn, bizdə bu 100 aydırsa, başqa ölkədə təxminən 20 aydır", - o deyib.

Sosioloqun sözlərinə görə, evsizlik problemi gənclərin ailə qurmasına maneə olur. "İpoteka kreditləri bir çox ölkələrdə 1-2% ilə verilir. Bəzi ölkələrdə hətta 0,5% ilədir. Bizdə isə bundan dəfələrlə yüksəkdir. Banklar da sərbəst ipotekada öz bildiklərini edirlər. Nəticə də evsizlik problemi çoxalır. Statistika aparsaq görərik ki, evlər yalnız bir qrup şəxslərə aiddir. Digər hissəsi isə vaxtilə sovet dövründə aldığı pulsuz evlərdir. Bu insanların sosial vəziyyətini pisləşdirməklə yanaşı, həm də gənclərin ailə qurmasına maneə olur. Gənc düşünür ki, evlənib 20-30 il kirayədə yaşayacaq, 600 manat maaşla kirayədə yaşamaq mümkün deyil/ Ona görə, əgər dövlət istəyirsə əhalisini mənzillə təmin etsin, normal ölkələrin təcrübəsinə baxsın", - o əlavə edib.

***Toğrul Əliyev***



# Aprelin 7-də bu rayonlarda buraxılış imtahanları keçiriləcək - SİYAHI

***Aprelin 7-də Bakı şəhərinin Xəzər - 1, Qaradağ, Yasamal, Suraxanı, Binəqədi rayonlarında, Sumqayıt - 1, Abşeron - 1, Gəncə - 2, Mingəçevir, Şəmkir - 1, Tovuz, Qəbələ, Oğuz, Lənkəran - 2, Cəlilabad - 1, Masallı - 1, Yardımlı, Beyləqan, Füzuli (o cümlədən M.Uluqbəy adına 1 №-li məktəb), Laçın (şəhər 2 №-li və Zabux kənd tam orta məktəbləri), Zəngilan (Ağalı kənd tam orta məktəbi), Ucar, İsmayıllı, Şamaxı, Sabirabad, Neftçala, Hacıqabul, Xaçmaz - 1 və Quba - 1 rayonlarında Dövlət İmtahan Mərkəzi tərəfindən ümumi (9 illik) orta təhsil səviyyəsi üzrə buraxılış imtahanları keçiriləcək.***

DİM-dən "Unikal"a verilən məlumata görə, imtahan saat 11:00-da başlanır. İmtahanın başlanmasına 15 dəqiqə qalmış - saat 10:45-də buraxılış rejimi başa çatır. Bundan sonra gələn iştirakçılar imtahan binasına buraxılmırlar. İştirakçıların imtahan binasına rahat şəkildə daxil olması üçün binaya müxtəlif gəlmə vaxtları müəyyən edilib və imtahan iştirakçısının buraxılış vərəqəsində həmin vaxt göstərilib. Ona görə də imtahan binasına buraxılış vərəqəsində qeyd olunan vaxtda gəlmək tövsiyə olunur.

Şagirdlər imtahana aşağıdakı sənədləri gətirməlidirlər:

- İmtahana buraxılış vərəqəsi;
- Şəxsiyyəti təsdiq edən sənədin əsli:

a) Azərbaycan Respublikasının vətəndaşları (16 yaşı tamam olmayan iştirakçılar da daxil olmaqla) şəxsiyyət vəsiqəsini;

b) əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Dövlət Miqrasiya Xidməti tərəfindən verilmiş icazə vəsiqələrini, qaçqın statusu almış xarici vətəndaşlar və onların ailə üzvləri isə qaçqın vəsiqələrini;

- Şəxsiyyət vəsiqəsində şəkli olmayan iştirakçılar digər sənədlərlə yanaşı, təhsil müəssisəsi tərəfindən verilmiş və fotoşəkilləri yapışdırılmış arayışı (arayışa iştirakçının 3x4sm ölçülü şəkli yapışdırılır və şəkil möhürlə təsdiqlənir).

Şəxsiyyəti təsdiq edən sənədində şəkli olmayan şagirdlər buraxılış imtahanı üçün təhsil müəssisəsi tərəfindən verilməli olan arayışı DİM-in saytından yükləyə bilərlər.

İmtahanda iştirak edəcək şagirdlər "İmtahana buraxılış vərəqəsi"ni internet vasitəsilə DİM-in saytından martın 27-dən etibarən çap edib götürə bilərlər.

İmtahan keçirilən şəhər və rayonlarda ümumilikdə 233 imtahan binası, 4158 imtahan zalı ayrılıb. İmtahanların idarə olunmasına 674 imtahan rəhbəri və ümumi rəhbər, 5193 nəzarətçi, 757 buraxılış rejimi əməkdaşı (mühafizə), 233 bina nümayəndəsi ayrılıb.

İmtahanda 55887 şagirdin iştirakı nəzərdə tutulur.

İmtahanda 25 nəfər sağlamlıq imkanları məhdud (gözdən əlil, serebral iflic, eşitmə əngəlli və digər) şagirdlər də iştirak edəcək. Bu şagirdlərin rahat şəkildə imtahan verməsi üçün imtahan binalarında xüsusi zallar ayrılıb, orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə gözdən əlilliyi müəyyən edilmiş şəxslərə isə fərdi nəzarətçilər təyin edilib.

Hazırda imtahanlarda iştirak edəcək nəzarətçilər, imtahan rəhbərləri, mühafizə əməkdaşları ilə onlayn şəkildə təlim-seminarlar keçirilir. Bütün imtahan binalarına baxış keçirilib, imtahan zallarında şagirdlərin rahat şəkildə imtahan verməsi üçün zəruri şərait yaradılıb.

İmtahana 1 gün qalmış təhlükəsizliyin təmin edilməsi məqsədilə imtahan mərkəzlərinə təkrar baxış da keçirilir və imtahan zalları, giriş-çıxış qapıları, binalar möhürlənməklə Daxili İşlər Nazirliyi Baş Mühafizə İdarəsinin əməkdaşlarının mühafizəsinə verilir.

12_27 IYUl-QARA.qxd 4/4/2024 11:03 PM Page 9



# Ordumuz təxribatın qarşısını ləyaqətlə almağa hazırdır



***Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin diqqət və qayğısını üzərində hiss edən Azərbaycan əsgəri torpaqlarımızı göz bəbəyi kimi qoruyur və ehtimal edilən istənilən təxribatın qarşısını ləyaqətlə almağa hazırdır.***

Bu barədə "Unikal"a Müdafiə Nazirliyindən məlumat verilib.

Bildirilib ki, çətin relyefli və yüksək dağlıq ərazilərdə yerləşən bölmələrdə günün nizam qaydalarına uyğun olaraq sutkaboyu döyüş növbətçiliyi yüksək səviyyədə təşkil edilir, fasiləsiz xidmət aparılır.

Döyüş növbətçiliyinə cəlb edilən şəxsi heyətə təhlükəsizlik qaydaları çatdırılır, onların döyüş və mənəvi-psixoloji hazırlığının yüksək səviyyədə saxlanması üçün mütəmadi olaraq məşğələlər keçirilir.

Ordu sıralarında xidmət edən vətənpərvər gənclərimiz komandirlərin onlara aşıladığı hərbi biliklər sayəsində qarşıya qoyulan bütün tapşırıqların öhdəsindən layiqincə gəlirlər.

# Mina Xəbərdarlığı Günü ilə bağlı Qarabağda tədbir keçirilib



***Mina Xəbərdarlığı Günü ilə bağlı Qarabağda ağacəkmə aksiyası və Mina Aksiyasına Yardım Günü münasibətilə tədbir keçirilib.***

4 Aprel - Beynəlxalq mina məbərdarlığı və minatəmizləmə fəaliyyətinə yardım Günü ilə bağlı Azərbaycan Respublikası Minatəmizləmə Agentliyi (ANAMA) yanında İctimai Şuranın üzvləri, Beynəlxalq Avrasiya Mətbuat Fondunun icra etdiyi Azərbaycanın ilk Qadın minaaxtaranları layihəsinin əməkdaşları, mina qurbanları və onların ailə üzvlərinin iştirakı ilə Tərtər rayonunda ağacəkmə aksiyası keçirilib.

Tədbirdə çıxış edən BAMF-in prezidenti Umud Mirzəyev Ermənistanın işğalçılıq və terror siyasəti nəticəsində Azərbaycan təbiətinə, bioloji müxtəlifliyə, bütövlükdə ekoloji duruma dəyən ziyandan danışıb. Tarixi Sultanbud meşəsinin də təbii landşaftı və ağacları Qarabağ müharibəsinin təsiri nəticəsində məhv edilib. Bugünkü ağacəkmə aksiyası dünyada minalarla mübarizə proqramlarına, tarixi Sultanbud meşəsinin bərpasına, eləcə də Azərbaycanın "Yaşıl dünya naminə həmrəylik ili"nə töhfə məqsədi daşıyır.

Aksiya zamanı Sultanbud meşəsinin Tərtər rayonu Buruc kəndi ilə Xoruzlu kənd arasındakı əraziyə 3300 ədəd ağac əkilib.

Həmçinin Tərtərdə 4- aprel Beynəlxalq Mina Xəbərdarlığı və Mina Aksiyasına Yardım Günü münasibətilə tədbir keçirilib. Aprelin 4-də Beynəlxalq Mina Xəbərdarlığı və Mina Aksiyasına Yardım Günü münasibətilə Azərbaycan Respublikası Minatəmizləmə Agentliyi (ANAMA) yanında İctimai Şuranın üzvləri, Azərbaycanın aparıcı QHT rəhbərləri, bir sıra beynəlxalq təşkilatların nümayəndələri, Beynəlxalq Avrasiya Mətbuat Fondunun (BAMF) icra etdiyi Azərbaycanın ilk Qadın minaaxtaranları, Qeyri-Texniki Təhqiqat və Partlayıcı sursatların təhlükəsinə dair maarifləndirmə layihələrinin əməkdaşları, mina qurbanları və onların ailə üzvlərinin iştirakı ilə Tərtərdə tədbir keçirilib. BAMF-ın prezidenti və ANAMA yanında İctimai Şuranın sədri Umud Mirzəyev tədbirdə çıxış edərək, dünyada və Azərbaycanda mina təhlükəsindən, onun yaratdığı fəsadlardan danışıb. Daha sonra vətəndaş cəmiyyəti qurumları, minadan zərərçəkənlər və mina qurbanlarının ailə üzvlərinin imzası ilə dünya ictimaiyyətinə ünvanlanan bəyanat səsləndirilib.

# Ramin Bayramlının biznesi də əlindən çıxır

## TƏBİB-in sabiq rəhbərinin adı milyonlarla manatlıq maxinasiyada hallanan şirkətinin ətrafında nə baş verir?

***Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) sabiq sədri Ramin Bayramlının "Spektr Med" şirkəti ondan alınıb. Bu barədə məlumat yayan medicina.az-ın xəbərinə görə, şirkət əvvəlcə fiziki şəxsin adına rəsmiləşdirilib, daha sonra isə "Avromed" şirkətinə verilib.***

Qeyd edək ki, Ramin Bayramlı TƏBİB-ə sədr təyin edildikdən sonra "Spektr Med" (VÖEN-i 2001534811) MMC-ni alaraq, dövlət satınalmalarını həmin şirkət vasitəsilə həyata keçirib.

COVID-19-la mübarizə işinin təşkili üçün tibb müəssisələrində yeni laboratoriyaların qurulması da R.Bayramlının "SPEKTR MED" şirkəti vasitəsilə həyata keçirilib. Bu əməliyyatlarda Məhkəməsində hakim Rəşad Cavadzadənin sədrliyi ilə araşdırılacaq.

Həmin maddədə statistik məlumatların verilməsi qaydalarının pozulmasına görə cərimə nəzərdə tutulur. Belə ki, statistik müşahidələrin aparılması üçün zəruri olan məlumatların təqdim edilməməsinə və ya vaxtında təqdim edilməməsinə, yaxud hesabatların təhrif edilməsinə görə üç yüz manatdan beş yüz manatadək məbləğdə cərimə edilir.

O da maraqlıdır ki, bir müddət əvvəl TƏBİB-in keçmiş və qalmaqallı rəhbərinin bədii yaradıcılığa başladığı bildirilmişdi. Bu isə onun Türkiyənin Cümhuriyyət bayramına həsr etdiyi "Canım, canım, Türkiyem" şeiri ilə məlum olub. Müəllif şeirdə ulu türk sulxınlarından müxtəlif məbləğlərdə rüşvət aldıqları aşkarlanmışdı. Söhbət hər xəstədən 3000-3500 manat məbləğində pul alınmasından gedirdi.

Bayramlının TƏBİB-ə cəmi 2 il rəhbərlik etməsi, "Referans" adlı özəl klinikanın da ona məxsus olması, üstəlik, bu quruma sədr təyin olunduqdan bir müddət sonra torpaq sahəsinin sotu 70 min manatdan başlayan Badamdar qəsəbəsi, birinci massivdən 4 sot torpaq alması, ardınca həmin torpaq sahəsində dəbdəbəli villa tikdirməsi də diqqət çəkir. Bütün bunlar onun barəsində rüşvət və korruspiya iddialarında həqiqət payının olduğunu söyləməyə əsas verir.

Elə R.Bayramlı tutduğu postdan ayrıldıqdan sonra deputat



R.Bayramlının milyonlarla vəsait əldə etdiyi bildirilir.

Məsələn, bir iddiaya görə, Bayramlı pandemiya dövründə vəzifəsindən sui-istifadə edərək, dövlət satınalmalarını "Spektr Med" şirkəti vasitəsilə həyata keçirib. O, TƏBİB sədri kimi laboratoriya cihazları və reaktiv-reagent istehsal edən məşhur şirkətlərin xarici nümayəndələri ilə şəxsən görüşərək "Spektr Med"i tərəfdaş kimi tanımalarını tələb edib. Ramin Bayramlı bunun qarşılığında həmin şirkətlərlə laboratoriya cihazları və digər tibbi avadanlıqların alqı-satqısı ilə bağlı iribüdcəli müqavilələr bağlanacağını vəd edib.

Beləliklə, pandemiya dövründə Azərbaycanda dəyəri milyonlarla dollarla ölçülən avadanlıqların alınması faktiki olaraq, Ramin Bayramlıya məxsus olan "Spektr Med" vasitəsilə həyata keçirilib. Bakupost-un əldə etdiyi məlumata görə, həmin illərdə 650 bahalı tibbi cihaz və digər avadanlıqlar alınıb. Bu alqı-satqı əməliyyatları nəticəsində qısa müddət ərzində "Spektr Med"in büdcəsi 70 milyon manata yüksəlib.

Başqa bir iddiaya görə isə Ramin Bayramlının əlindən alındığı deyilən "Spektr Med" şirkətində nöqsanlar aşkarlanıb. İqtisadiyyat.az xəbər verib ki, Dövlət Statistika Komitəsi bu şirkətin statistik məlumatların verilməsi qaydalarını pozduğunu müəyyən edib. Buna görə də Dövlət Komitəsi şirkət barəsində İnzibati Xətalar Məcəlləsinin 389-cu maddəsinə əsasən cərimə protokolu tərtib edib.

Protokol Yasamal Rayon tanlarını, Türkiyəni və onun qurucularını mədh edib.

"Unikal" qəzetinin əldə etdiyi məlumata görə, ixtisasca həkim mikrobioloq olan Ramin Bayramlı hazırda Azərbaycan Tibb Universitetinin (ATU) Tibbi mikrobiologiya və immunologiya kafedrasında dosent vəzifəsində çalışır.

O, 2021-ci ilin sentyabrın 12-də öz ərizəsi ilə TƏBİB-in sədri vəzifəsindən azad olunsa da, əslində buna səbəb pandemiya səbəbilə çoxsaylı maxinasiyalarda adının hallanması olub. Burada söhbət yalnız "Spektr Med" xətti ilə müəmmalı şəkildə on milyonlarla manatlıq avadanlığın alınmasından getmir. Eyni zamanda TƏBİB-in tabeliyindəki "Yeni klinika"da qabaqcadan əlbir olmaqla koronavirus xəstələrinin bu tibb müəssisəsində yerləşdirilməsi müqabilində onların yaMəlahət İbrahimqızı da mətbuata açıqlamasında bildirmişdi ki, görünür, bunun səbəbi göstərilən etimadı yetərincə doğrulda bilməməsidir. "Burada başqa bir səbəb görmürəm" - deyə vurğulamışdı.

Başqa bir millət vəkili - Musa Quliyev isə demişdi ki, müstəqil və səlahiyyətli komissiya yaradılmalı, TƏBİB yarandığı gündən indiyəqədərki dövr araşdırmalıdır. Sitat: "Nöqsanlar varsa, nədən qaynaqlanıb, ortaya çıxarılmalıdır ki, gələcəkdə onlar təkrarlanmasın..."

İndi isə Ramin Bayramlının milyonluq şirkətini satması barədə xəbər yada məşhur bir atalar sözünü salır: "Kələklə gələn küləklə gedər".

***Toğrul Əliyev***

# Monopolistlərin növbəti ağlasığmaz soyğunu - Şok rəqəmlər...

## Həftənin sualı: marketlərdə satılan kərə yağlarının qiyməti ilə onların idxal qiyməti arasında kəskin fərqin səbəbi nədir?

***Bu yaxınlarda aparılan araşdırma nəticəsində məlum olub ki, ölkədəki kərə yağı bazarında kərə yağlarının idxal qiyməti ilə onların müştəriyə satış qiyməti arasında böyük fərq var. Daha acınacaqlısı odur ki, həmin fərq hər il artmaqdadır. Belə ki, 10 il əvvəl marketlərdə satılan xarici kərə yağının qiyməti ilə həmin yağın idxal qiyməti arasında cəmi 58% fərq var idisə, hazırda bu fərq 100%-i keçib, yəni 2 dəfədən artıqdır.***

Belə ki, araşdırmaya əsasən, 2014-cü ildə Azərbaycana gətirilən kərə yağının 1 kiloqramının idxal qiyməti (burada və bundan sonrakı bütün hallarda söhbət il üzrə orta qiymətdən gedir -müəl.) cəmi 4,34 manat olub. Həmin ildə yağın pərakəndə satış şəbəkəsində, yəni marketlərdəki son edilmiş kərə yağının 1 kiloqramının pərakəndə satış qiyməti 18,53 - 19,62 manat arasında dəyişib. Kərə yağının rota qiyməti isə 18,20-19,12 manat arasında olub.

Başqa sözlə, xaricdən idxal edilən kərə yağının pərakəndə qiyməti onun idxal qiymətini 2 dəfə üstələyib.

Kərə yağının idxal olunduğu qiymətdən 2 qat artıq qiymətə satılması əvvəlki illərdə də baş verib.Məsələn, 2021-ci ildə Azərbaycana ümumilikdə 71 milyon 922 min 190 dollar dəyərində 13 min 696 ton 590 kiloqram kərə yağı idxal edilib. İdxal edilən kərə yağının hər kiloqramı 5,25 dollar və ya 8,92 manat təşkil edib. Amma bu dövrdə xaricdən idxal olunan kərə yağının 1 kiloqramı mağaza və ticarət şəbəkələrində 16,50-18,05 manata satılıb. Kərə yağının orta qiyməti isə 16,41-416 min dollar dəyərində 16 min 597 ton kərə yağı idxal edilib, yəni yağın 1 kiloqramının idxal qiyməti 9,47 manat olub. Onun marketdə satış qiyməti isə ortalama 19,67 manat, yəni gömrük qiymətindən 10,2 manat baha olub. Təsəvvür edin ki, 2016-cı ildən 2023-cü ilədək kərə yağının idxal qiyməti cəmi 3,74 manat artdığı (9,47 manat - 5,73 manat) halda, onun marketlərdəki satış qiyməti 9,10 qəpik artıb. Yəni, son 8 ildə marketlərdəki qiymətlər gömrükdəki qiymətlərdən 3 dəfə çox artıb.

Ən maraqlısı (və absurdu!) odur ki, 2017-ci ildə Azərbaycana idxal olunan kərə yağı və komponentlərinə tətbiq olunan gömrük rüsumları ilə bağlı güzəştlər tətbiq edilməyə başlanılıb. 2021-ci ildə həmin güzəştlərin müddəti daha iki il uzadılıb. Bununla bağlı Baş nazir Əli Əsədov “Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 17 noyabr tarixli 500 nömrəli Qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri”ndə dəyişiklik edilməsi barədə qərar imzalayıb. Güzəştlər 2021-ci ilin sonundan 2023-cü ilin sonunadək uzadılıb və bununla bağlı bu məhsullara 5 %-lik idxal gömrük rüsumlarının tətbiq ediləcəyi bildirilib. Daha əvvəl isə həmin məhsullara 15 %-lik idxal gömrük rüsumu tətbiq edilirdi.



qiyməti isə 6,86 manat təşkil edib. Başqa sözlə, kərə yağının marketdəki satış qiyməti - onun idxal qiymətindən 2,52 manat artıq olub ki, bu da “cəmi” 58% artım deməkdir (fed.az).

2022-ci ildə isə həmin artım 2 dəfəyə çatıb. Dövlət Statistika Komitəsinin idxal məlumatlarından aydın olub ki, 2022-ci ilin ilk 6 ayında xarici ölkələrdən Azərbaycana ümumi dəyəri 55 milyon 713 min dollarlıq 9 min 975 ton kərə yağı idxad edilib. Kərə yağının 1 kiloqramının idxal qiyməti 5,6 dollar və ya 9,5 manat təşkil edib. Başqa sözlə, 2022-ci ilin ilk 6 ayında xaricdən Azərbaycana idxal edilən kərə yağının idxal qiyməti 7,2-12,2 manat arasında dəyişib. Ən bahalı yağ Almaniyadan, ən ucuz yağ isə irandan idxal edilib. İdxalda ən çox paya malik olan və Azərbaycanın ticarət şəbəkələrində də ən çox satılan Yeni Zelandiya yağının kiloqramı isə ölkəyə 10,6 manatdan idxal edilir.

Amma bu dövrdə Azərbaycanın ticarət şəbəkələrində isə idxal 17,89 manat arasında olub.

2020-ci ildə Azərbaycana ümumilikdə 74 milyon 457 min dollar dəyərində 15 min 038 ton 970 kiloqram kərə yağı idxal edilib. İdxal edilən kərə yağının hər kiloqramı 4,95 dollar və ya 8,42 manat təşkil edib. Yağın mağazalardakı satış qiyməti isə 16,58-16,75 manat təşkil edib.

Göründüyü kimi, 10 il öncə yağın qiymətinin gömrükdən marketə qədər artımı 58% təşkil etdiyi halda son bir neçə ildə bu, 100 faizi ötüb. Əslində 58 faizlik fərq də yüksək bahalaşma kimi görünə bilər. Lakin görünür, həmin vaxt inhisarçılar daha insaflı olublar...

”2023-cü ildə isə kərə yağının market və gömrük qiyməti arasında fərq daha yüksək həddə çatıb - 108%. Yeri gəlmişkən, bu “rekord” münasibət ilə monopolistlərimizi və supermarket şəbəkələri sahiblərini təbrik edə bilərik!” deyə azpolitika.az haqlı olaraq kinayəli şəkildə yazıb.

Məsələ burasındadır ki, ötən il xaricdən Azərbaycana 92 milyon

Qərar daxili bazarda kərə yağının qiymətinin artımına yol verilməməsi üçün kərə yağı, süddən hazırlanmış digər yağlar və süd pastalarının idxalına tətbiq olunan rüsum güzəştinin qüvvədə olma müddətinin uzadılması məqsədilə qəbul edilib. Bununla da kərə yağı, süddən hazırlanmış digər yağlar və süd pastalarının idxalı üzrə rüsum güzəştinin qüvvədə olma müddətinin uzadılması nəticəsində istehlak qiymətlərində sabitliyin təmin olunması və kərə yağı məhsulları ilə təminatın səviyyəsinin qorunub saxlanılması proqnozlaşdırılıb.

Lakin göründüyü kimi, hətta gömrük rusumlarında güzəştlər də deməк olar heç nəyi dəyişməyib: vətəndaş sözügedən məhsulu idxal qiymətindən 2 dəfə, hətta bir az da baha qiymətə almaq məcburiyyətində qalıb.

Bu, monopolistlərin açıq-aşkar soyğunçuluğundan başqa bir şey deyil. Və belə görünür ki, ölkədə inhisarçılıq problemi kökündən həll edilmədiyi təqdirdə biz qarşıdakı illərdə həmin soyğunçuluğun daha geniş miqyas aldığının şahidi olacağıq.

*Sənan Mirzə*

# "Ermənistan azad olunan ərazilərdə ekoloji cinayətlər törədib" - Baş prokuror




***Ermənistan tərəfindən işğaldan azad olunan ərazilərdə ekoloji cinayətlər törədilib.***

”Unikal” xəbər verir ki, bunu Baş Prokuror Kamran Əliyev Xəzəryanı dövlətlərin Baş Prokurorluqlarının rəhbər vəzifəli şəxslərinin ”Xəzər Dənizinin Akvatoriyasında Ekoloji Hüquqpozmalar: Dəniz Mühitinin Qorunması üçün Prokurorluq Orqanlarının Strategiyaları” mövzusunda beştərəfli görüşü zamanı deyib.

O bildirib ki, hazırda bu cinayətlərlə bağlı Baş Prokurorluq tərəfindən yaradılmış istintaq qrupu tərəfindən araşdırılır:

”Bu cinayətlərin hüquqi nəticələri ilə bağlı beynəlxalq ictimaiyyətin məlumatlandırılması, milli və beynəlxalq qanunvericiliyə uyğun lazımi hüquqi tədbirlərin görülməsi təmin olunacaq”.

Kamran Əliyev qeyd edib ki, ekoloji cinayətlərlə bağlı digər ölkələrin hüquq-mühafizə orqanlarına da qarşılıqlı hüquqi yardımın göstərilməsi ilə bağlı müraciətlər ediblər: Onlarla intensiv əlaqələr saxlayırıq. Bu nəticələr toplandıqdan sonra istintaq materialları beynəlxalq məhkəmələrdə istifadə olunacaq”.

# Emin Əmrullayev onu müdir təyin etdi



***Elm və Təhsil Nazirliyində yeni kadr təyinatı olub.***

“Unikal” xəbər verir ki, bununla bağlı elm və təhsil naziri Emin Əmrullayev əmr imzalayıb. Əmrə əsasən, Kamran İsmayılov nazirliyin Daxili nəzarət şöbəsinə müdir təyin edilib.

Qeyd edək ki, Kamran İsmayılov Bakı Dövlət Universitetində ali təhsilin bakalavriat və magistratura səviyyələrini beynəlxalq münasibətlər ixtisası üzrə fərqlənmə diplomu ilə bitirib. Bundan əlavə, Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının dövlət qulluğunun təşkili və idarə edilməsi ixtisası üzrə magistr dərəcəsi alıb.

Kamran İsmayılov Xətai Rayon İcra Hakimiyyətində İctimai təşkilatlar və siyasi partiyalarla iş, İctimai siyasət və humanitar məsələlər şöbəsinin müdiri, həmçinin “Azərsun Holdinq”də müxtəlif vəzifələrdə çalışıb.

Qeyd edək ki, bu təyinata qədər Kamran İsmayılov Elm və Təhsil Nazirliyinin Daxili nəzarət şöbəsinin müdir müavini vəzifəsində işləyib.

# Maksimal nəticə göstərən abituriyentlər BANM-i seçirlər



***Buraxılış imtahanlarında 300 bal toplamaqla ən yüksək nəticə göstərən Amalya Əliyeva və Fatimə Qasımova Bakı Ali Neft Məktəbində təhsil almaq arzusundadırlar.***

“Unikal” xəbər verir ki, Amalya Şəki şəhər Fizika-riyaziyyat və humanitar təmayüllü liseyin, Fatimə isə Bakı şəhər 146 saylı orta məktəbin şagirdidir.

Amalya BANM-in İnformasiya təhlükəsizliyi, Fatimə isə Kimya mühəndisliyi ixtisasında təhsil almağı arzulayır.

12_27 IYUl-QARA.qxd 4/4/2024 11:03 PM Page 11





# Bayram namazının vaxtı açıqlandı

***Mart ayının 11-dən Azərbaycanda Ramazan ayı başlayıb. Aprelin 10-11-i dövlət səviyyəsində Ramazan bayramı qeyd olunacaq.***

Bəs bayram namazı nə vaxt qılınacaq?

Qafqaz Müsəlmanlar İdarəsinin sədr müavini Hacı Fuad Nurullayev Bakıvaxtı.az-a açıqlamasında bildirib ki, hər il olduğu kimi, bəzi məscidlərimizdə bayram namazları səhər saat 8-də, bəzilərində isə saat 9-da qılınacaq: “Hər bir məscidin imamı, məscid rəhbərliyi namazın vaxtını öz camaatına uyğun qərarlaşdıra bilər. Yəni yarım saat, bir saat tez və ya gec edə bilərlər. Çünki onlar məscidə gələn əhalinin vəziyyətini dəqiq bilirlər, ona uyğun namaz vaxtlarını tənzimləyə bilərlər”.

“Bizim üfüqümüzə uyğun olaraq, Qafqaz Müsəlmanları İdarəsinin Şamaxı Rəsədxanasına göndərdiyi sorğunun cavabına əsasən, Azərbaycanda Ramazan ayı martın 11-də daxil olub, aprel ayının 10-u isə bayram günüdür. Dövlət səviyyəsində aprelin 10-11-i bayram günü qeyd ediləcək”, - deyə sədr müavini əlavə edib.

# Restoran sahibindən 200 min manat tələb edənlərə hökm oxundu



***Bakıda kafe sahibindən hədə-qorxu yolu ilə pul tələb etməkdə təqsirləndirilən Sakit Əlişov və Şahin Quliyevə hökm oxunub.***

”Unikal”ın məlumatına görə, bu barədə hökm Bakı Ağır Cinayətlər Məhkəməsinin hakimi Səbinə Məmmədzadənin sədrliyi ilə keçirilən prosesdə elan edilib.

Hökmə əsasən, təqsirləndirilən şəxslər Sakit Əlişov və Şahin Quliyev 12 il müddətinə azadlıqdan məhrum ediliblər.

Xatırladaq ki, prokuror Ziya Mansurov hər iki təqsirləndirilən şəxsin 13 il müddətinə azadlıqdan məhrum edilməsini məhkəmədən istəmişdi.

Qeyd edək ki, Cəlilabad rayon sakini Sakit Əlişov və Qəbələ rayon sakini Şahin Quliyev Nəsimi rayonu ərazisində yerləşən kafelərin birində oranın sahibinin başına dəmir parçası ilə xəsarət yetiriblər. Daha sonra onun azyaşlı oğlunu zirzədə stula bağlayıb bıçaqla hədələyərək 200.000 manat verilməsini tələb ediblər.

Hər iki şəxsə qarşı Cinayət Məcəlləsinin 182.3.2-ci (hədə-qorxu ilə tələb etmə) maddəsi ilə ittiham irəli sürülüb.

***Azər İsrafilov***

# 6 ildir vəzifəsiz qalan sabiq icra başçısının "feysbuk" peşmançılığı

## Sabiqlərin izi ilə: bir ara deputat da olmuş Vaqif Abdullayev sosial şəbəkəyə niyə gəldi, nə üçün getdi?

***”Unikal” qəzeti keçmiş məmurların və eks-deputatların hazırda harada və nə işlə məşğul olduqları barədə silsilə yazıların dərcini davam etdirir. ”Sabiqlərin izi ilə” adlandırdığımız həmin silsilədən bugünkü məqaləmiz bir zamanlar ölkənin haqqında ən çox yazılan, danışılan icra başçılarından olmuş Vaqif Abdullayevdir.***

Siyasi elmlər doktoru, professor V.Abdullayev hazırda 68 yaşındadır. O, Qərbi Azərbaycanın Basarkeçər rayonunun Aşağı Şorca kəndində doğulub. 40 yaşında - 1996-cı ildə Bakı Sosial İdarəetmə və Politologiya İnstitutunu fərqlənmə diplomu ilə bitirib, Prezidentin İşlər idarəsində məsləhətçi vəzifəsində işləyərkən - 1998-ci ildə siyasi elmlər üzrə namizədlik dissertasiyası, 2004-cü ildə - Milli Məclisin üzvü olduğu vaxt siyasi elmlər üzrə doktorluq dissertasiyası müdafiə edib (yeri gəlmişkən, 24 sentyabr 2001-ci ildə 24 saylı Nərimanov Birinci seçki dairəsi üzrə deputat seçilmiş Yeni Azərbaycan Partiyası üzvü Samur Novruzov vəfat etdiyindən 12 aprel 2002-ci ildə həmin dairə üzrə əlavə seçkilər keçirilib. Seçki nəticələrinə əsasən Yeni Azərbaycan Partiyası (YAP) üzvü olan Vaqif Abdullayev Milli Məclisin II çağırış üzvü olub. Lakin 3 il sonra, 2005-ci ildə yeni parlament seçkiləri zamanı deputat mandatını yeniləyə bilməyib) . V.Abdullayev Xızı Rayon İcra hakimiyyətinin başçısı təyin olunduğu il - yəni 2007-ci ildə isə Azərbaycan Respublikası Ali Attestasiya Komissiyasının qərarı ilə professor adı alıb.

Xızıda 5 il bu postu tutduqdan sonra 2012-ci ildə Beyləqana icra başçısı təyin edilən Vaqif müəllim həmin vəzifədə 6 il işləyib. 2018-ci ildə karyera yüksəlişi arxada qalan, icra başçısı postundan uzaqlaşdırılan və o vaxtdan bəri heç bir vəzifə tuta bilməyən Abdullayev bir müddət YAP Siyasi Şurasının üzvü də olub. Lakin hakim partiyanın 2021-ci ildə keçirilən iclasında Siyasi Şura ləğv edilib. Beləcə, Vaqif müəllim həmin məqamı da itirib.

Sabiq başçı xüsusilə Beyləqana rəhbər posta təyin edildikdən qısa müddət sonra onun adı ölkə mediasının ən çox tənqid edilən icra başçılarının siyahısına düşüb. ”Vurulmasının” ardından KİV-ə açıqlamasında ”İstər siz olun, istər biz olaq, nədənsə vəzifə deyəndə hamı nazir, başçı və s. düşünür. Amma nəzərə alaq ki, hamı kimliyindən asılı olmayaraq bir vətəndaşlıq vəzifəsi daşıyır” - deyən Abdullayev yerli sahibkarları incitməkdə, vətəndaşların problemlərinin həllinə laqeyd münasibətdə təqsirləndirilib, onun icra başçısı olduğu dönəmdə Beyləqanda rüşvət və korrupsiyanın geniş əl-qol açdığına, dövlət büdcəsindən ayrılan vəsaitlərin önəmli hissəsinin havaya sovrulduğuna, dövlət satınalmaları ilə bağlı ciddi nöqsanlara yol verildiyinə dair iddialar gündəmə gəlib.

Maraqlıdır ki, o, işsiz qaldıqdan qısa müddət sonra sabiq icra başçısı ”Facebook” sosial şəbəkəsində profil açmış, ancaq buna görə əməlli-başlı ictimai tənqid hədəfinə çevrilmişdi. Bunun da səbəbi vardı: həmin tənqidlərdən belə başa düşülürdü ki, insanlar vəzifədə olarkən əksəriyyət üçün əlçatmaz olan, özünə kifayət qədər geniş maddi imkanlar yaradan, Beyləqan əhalisinin başda fermerlər olmaqla böyük hissəsinin fəaliyyətindən narazılıq etdiyi bir eks-icra başçısının ”vurulub”, özünə sosial şəbəkələrdə şəxsi profil açması və ”sadə vətəndaş” kimi görünməyə çalışması səmimiyyətdən çox uzaqdır. Onun sosial şəbəkədən qəflətən yoxa çıxması da, buna əyani sübutdur.

Bir neçə il öncə hazırda təqaüddə olan V.Abdullayevin elmi fəaliyyətlə məşğul olmağa başladığı deyilirdi. 17 il öncə professor elmi dərəcəsi alan sabiq başçının hansı elmi fəaliyyətlə məşğul olduğu isə açıqlanmamışdı.

Yeri gəlmişkən, V.Abdullayev Beyləqana rəhbərlik etdiyi dövrdə baş verən bir hadisə ictimaiyyət və media arasında geniş rezonans doğurmuşdu. Söhbət Yaponiya hökumətinin “Ot kökləri və insan təhlükəsizliyi qrant yardımı” proqramı çərçivəsində həyata keçirilən “Beyləqan şəhərində məktəbin gigiyenik şəraitinin yaxşılaşdırılması” layihəsi çərçivəsində 1 və 4 nömrəli tam orta məktəblərdə yeni sanitar qovşağın (qısacası, tualetin) açılışından gedir. Bununla bağlı mərasimdə icra başçısı rəmzi qırmızı lent kəsmiş, tədbir iştirakçıları ilə birgə yeni sanitar qovşaqla bağlı görülən işlərlə tanış olmuşdular.

Ayaqyolunun açılış mərasimi xəbərinin ciddi müzakirə mövzusuna çevrilməsindən sonra isə həmin vaxt Beyləqan Rayon İcra Hakimiyyəti başçısının 1-ci müavini işləyən Telman Məstanov anspress-ə açıqlama verərək demişdi: “Bu çox yüksək səviyyəli sanitar qovşağıdır. Başçının iştirakına belə reaksiyanı anlaya bilmirəm. Bu söhbəti etmək ayıbdır. Sanitar qovşağını bu şəkildə (tualet kimi) təqdim edən adamlar görsəydi ki, o, necə bir qovşaqdır, məsələyə belə münasibət bildirməzdilər...”



Hazırda elmi fəaliyyətlə məşğul olduğu bildirilən V.Abdullayev mütəmadi olaraq müxtəlif məsələlərə münasibət bildirməkdədir. Məsələn, 2020-ci ildə o, həmin vaxt deputat olan Araz Əlizadənin (2022-ci ildə vəfat edib) Qafqaz İslam Ordusunun komandanı Nuru Paşanın ünvanına sərt ittihamlar səsləndirməsinə reaksiya vermiş, ”Bu gün Amerikadakı erməni lobbisinin süfrəsindən qidalanan leyla yunuslara, əlikramlara olan sevgisini ürəyində yaşadan Araz Əlizadələrin türkə, türkçülüyə, milliliyə münasibəti PKK-nın, ASALA-nın mövqeyindən heç də fərqlənmir. Onun bu mövqeyi erməni terrorbaşı Qaregin Njde ləqəbli Qaregin Ter-Arutyunyanı tərif edən Paşinyanın mövqeyinə daha yaxındır” deyə vurğulamışdı.

Ötən ilin payızında isə sabiq başçı ”Həmas”ın İsrailə hücumunu pisləyən açıqlamalar vermişdi. ”Bu gün bu bölgədə yaşananlar və Fələstindəki terrorçu qruplaşmaların İsrailin mülki insanlarına raket zərbələri endirməsi bizə ermənilərin 2020-ci il Vətən müharibəsi dövründə dinc insanların yaşadığı Tərtərə, Bərdəyə, Gəncəyə atdığı dağıdıcı raket zərbələrini xatırladır” deyə o, 2023-cü ilin oktyabrında bildirmişdi.

Maraqlıdır ki, hazırda müxtəlif KİV-lərdə ən müxtəlif mövzularda şərhlər, açıqlamalar verən sabiq başçı vəzifədə olarkən öz ünvanına səsləndirilən tənqidlərə və ittihamlara, demək olar, reaksiyası qalırdı...

***Toğrul Əliyev***

**5.3.8. Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Azərbaycanın mədəni-tarixi irsi dərsliklərdə

**Hafiz Cabbarov: "Gələcək nəsil tarixi abidələrimizə qarşı aparılan vandalizm barədə məlumatlı olmalı, işğaldan azad olunmuş torpaqlarımızda hansı mədəni- tarixi abidələrimizin düşmən tərəfindən dağıdıldığı və mənimsənildiyi barədə bilgiyə sahib olmalıdır"**



***Azərbaycanın mədəni-tarixi abidələrinin zəngin olduğu bölgələrdən biri də Qərbi Azərbaycan, Qarabağ zonasıdır. Qərbi Azərbaycanda yaşayan soydaşlarımızın XX əsrdə mərhələlərlə davam etmiş deportasiyası nəticəsində bu ərazidəki tarixi abidələrimizin çoxu düşmən tərəfindən mənimsənilib, bəziləri isə dağıdılaraq izləri tarixdən silinib.***

Amma tariximizi yaşatmaq, Qərbi Azərbaycan, eləcə də Qarabağ zonasında mədəni abidələrimizlə bağlı gələcək nəsli məlumatlandırmaq dövlətimizin əsas hədəflərindəndir. "Unikal" qəzeti hazırda dərsliklərimizdə Qərbi Azərbaycan, Qarabağ zonasında xalqımıza məxsus mədəni-tarixi abidələrlə bağlı məlumatların gələcək nəslə necə çatdırıldığını araşdırıb.

"Zəfər tarixi" dərsliyinin müəllifi, tanınmış tarix müəllimi Hafiz Cabbarov "Unikal" qəzetinə müsahibəsində bildirib ki, kurikulum standartlarına görə, tarix fənninin məzmunu onun məzmun xətləri əsasında qurulur. Bu bölmələrdən biri də mədəniyyətdir.Onun sözlərinə görə, 8-ci sinif tarix dərsliyində Qərbi Azərbaycan torpaqlarında, Qarabağ xanlığı ərazisində tarixi- mədəni abidələrlə bağlı məlumatlar öz əksini tapıb.

"Dərslikdə Şahbulaq, Şuşa qalası, Şuşadakı Pənahəli xanın məscidi barədə məlumatlar verilib. Həmçinin 1764-cü ildə İrəvan şəhərində yerləşən Göy məscid, eləcə də Sərdar sarayının İrəvan xanı Hüseynəli xan Qacar tərəfindən inşa etdirildiyi barədə məlumatlar əks olunub. 9, 10,11-ci sinif dərsliklərində də bu barədə məlumatlar verilib. Amma biz bununla kifayətlənməməliyik. Hər dəfə tarix dərslikləri yeniləndikdə biz Qərbi Azərbaycan torpaqlarında, eləcə də işğaldan azad edilmiş ərazilərimizdə yerləşən mədəni-tarixi abidələrlə bağlı dərsliklərə məlumatlar daxil etməliyik. Gələcək nəsil Azərbaycan xalqının mədəni irsi olan tarixi abidələrimizin hansının dağıdıldığı, hansının düşmən tərəfindən mənimsənildiyini bilməlidir. Bu faktlar tarix dərsliklərində öz əksini tapmalıdır" deyə, H. Cabbarov bildirib.

Həmsöhbətimiz deyir ki, Azərbaycanlıların ermənilər tərəfindən deportasiyaya məruz qoyulmasından sonra həmin ərazilərdə olan yeraltı və yerüstü maddi mədəniyyət nümunələri, qədim yaşayış məskənləri, kurqanlar, qala, saray və istehkam qalıqları, karvansaralar, körpülər, qəbirüstü sənduqələr, xaçdaşlar, atqoç heykəlləri, məbəd, kilsə, məscidlərin çoxu məhv edilib, digər hissəsi isə mənimsənilib. Dərslik müəllifinin sözlərinə görə, bu məlumatlar əldə edildikcə dərsliklərdə də öz əksini tapmalıdır: "Torpaqlarımızın işğaldan azad olunması nəticəsində biz bir sıra tarixi-mədəni abidələrimizin mənimsənildiyini, yerdə qalanının yerlə-yeksan edildiyinin şahidi olduq. Bu məlumatlar mütləq şəkildə dərsliklərdə qeyd olunmalıdır. Gələcək nəsil tarixi abidələrimizə qarşı aparılan vandalizm barədə məlumatlı olmalı, işğaldan azad olunmuş torpaqlarımızda hansı mədəni- tarixi abidələrimizin düşmən tərəfindən dağıdıldığı və mənimsənildiyi barədə bilgiyə sahib olmalıdır".

H. Cabbarov hər beş ildən bir tarix dərsliklərinin yeniləndiyini bildirib. O, əlavə edib ki, Qərbi Azərbaycana qayıdış uzaqda olmadığından, xalqımızın öz tarixinə sahib çıxması, onu yaşatması vacibdir.

Qeyd edək ki, 30 illik işğal dövründə Qarabağda, eləcə də Şərqi Zəngəzurda olduğu kimi, xalqımızın İrəvanda da tarixi və mədəni abidələri soyqırıma məruz qalıb. Qərbi Azərbaycanın qədim toponimləri bütünlüklə erməni adları ilə əvəzlənib. Məlumatlara görə, Azərbaycan torpağı olan indiki Ermənistan ərazisində xalqımıza məxsus 3 min 500 tarix və mədəniyyət abidəsi, 500 qəbiristanlıq, 391 məscid qəddarlıqla dağıdılaraq məhv edilib. İrəvan şəhərində vaxtilə sırf azərbaycanlıların yaşadığı Dəmirbulaq massivində XX əsrin əvvəlində üç məscid qeydə alınıb. Həmin məscidlər-Hacı Novruzəli bəy, Hacı Cəfər bəy və Dəmirbulaq məscidi. 1988-ci il fevralın 23-də erməni vandalları İrəvan şəhərindəki Dəmirbulaq məscidini və M.F.Axundov adına 9 №-li azərbaycanlı orta məktəbin binasını yandıraraq izini itirməyə çalışıblar. Şərq memarlığının nadir nümunələrindən hesab edilən Göy məscid 1765-ci ildə Hüseynəli xanın hakimiyyəti dövründə inşa edilsə də, Ermənistan Göy məscidi xaricdən gələn qonaqlara "Fars məscidi" kimi təqdim edirlər.

İrəvan şəhərindəki Hacı Novruzəli bəy məscidi erməni vandalları tərəfindən dağıdılaraq məhv edilib. Bu siyahıya "Sərdar məscidi", "Abbas Mirzə məscidi erməni vandalları tərəfindən 2014-cü ilin noyabr ayının ortalarında məhv edilib. Halbuki, Ermənistan hökuməti məscidin qalığını "qorunan tarixi abidələr" siyahısında 2007-ci ildə Avropa Şurasına təqdim etmişdi. Düşmən tarixi torpaqlarımızda xalqımıza məxsus qəbiristanlıqları da dağıdaraq yerlə-yeksan edib. Ağadədə qəbiristanlığı, Ağudi abidəsi, Aşağı Şorca qəbiristanlığı, Aşıq Ələsgərin qəbirüstü abidəsi, Güllübulaq qəbiristanlığı, Saral qəbiristanlığı da bu siyahıya daxildir.

***Gülayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**

## "Ərazilərin minalanması yenidənqurma işlərini ləngidir" - Dövlət Komissiyası

***Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində itkin düşmüş vətəndaşlarımızın sonrakı taleyinə aydınlıq gətirilməsi məqsədilə Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası tərəfindən aidiyyəti dövlət qurumları, o cümlədən ANAMA ilə birlikdə işğaldan azad edilmiş ərazilərdə axtarış, qazıntı və ekshumasiya işləri davam etdirilir.***

Bu barədə "Unikal"a Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasından bildirilib.

Qeyd edilib ki, Ermənistan tərəfindən işğal və hətta postmünaqişə dövründə ərazilərin minalanması, mina-tələlərin quraşdırılması, o cümlədən partlamamış sursatlarla həddən artıq çirkləndirilməsi bölgədə aparılan bərpa və yenidənqurma işlərini, keçmiş məcburi köçkünlərin öz torpaqlarına qayıdışı prosesini ləngitməklə yanaşı, itkin düşmüş şəxslərə aid olduğu ehtimal edilən məzar yerlərində axtarış, qazıntı və ekshumasiya işlərinin aparılmasına da ciddi maneə yaradır: "Bir çox hallarda Dövlət Komissiyasına məlum olan itkin düşmüş şəxslərə aid olduğu ehtimal edilən məzar yerlərində mütəxəssis heyətinin işləməsi üçün ərazilərin minalardan təmizlənməsinə uzun müddət vaxt tələb olunur. Otuz ildən artıq itkin düşmüş doğmalarının yolunu gözləyən vətəndaşlarımızın iztirablarının artmasına və ümidlərinin azalmasına səbəb olan bu hal Ermənistanın beynəlxalq humanitar hüquqa hörmətsizliyinin bariz nümunəsidir.

Dövlət Komissiyası Ermənistanın mülki əhalinin ölümünə və yaralanmasına səbəb olan və itkin düşmüş vətəndaşlarımızın sonrakı taleyinin aydınlaşdırılmasına mane olan mina terrorunu qətiyyətlə pisləyir".

## 10 noyabr bəyanatından sonra 65 nəfər həlak olub - ANAMA

***10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanatdan indəyə qədər 350 nəfər minaya düşüb.***

"Unikal" xəbər verir ki, barədə Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin (ANAMA) məlumatında deyilir.

Qeyd olunub ki, onlardan 50 mülki şəxs olmaqla, 65 nəfər həlak olub. 121 nəfər mülki şəxs olmaqla, 285 nəfər xəsarət alıb.

## 2023-cü ildə Sumqayıtın demoqrafik göstəriciləri belə olub

***Ötən il şəhər əhalisinin sayı 966 nəfər və ya 0,2 faiz artaraq 2024-cü il yanvar ayının 1-i vəziyyətinə 426966 nəfərə çatıb. Şəhər əhalisinin 208682 nəfəri kişilər, 218284 nəfəri isə qadınlar təşkil edir. 2023-cü ildə şəhərdə 2997 doğum, 2019 ölüm, o cümlədən 1 yaşa qədər ölən uşaqların sayı 45 nəfər olmuşdur.***

Qeydə alınmış bir yaşa qədər ölən uşaqlardan 27-si oğlan və 18-i qız olub. 2023-cü ildə əhalinin miqrasiya saldosu mənfi 12 nəfər təşkil edib.

***Sumqayıt şəhər Statistika İdarəsi***

12_27 IYUl-QARA.qxd 4/4/2024 11:03 PM Page 13



## "Toy və yas mərasimlərində israfçılıq pik həddə çatıb" - Deputat

***"Bu gün ölkəmizdə toy və yas mərasimlərində israfçılıq ən pik həddə çatıb. İnsan bilmir dünyasını dəyişən yaxını üçün yas tutsun, yoxsa məclis təşkil etmək üçün yer axtarsın".***

"Unikal" xəbər verir ki, bunu deputat Ceyhun Məmmədov deyib. O bildirib ki, dəfələrlə bu məsələyə həm Milli Məclisdə, həm də mediada geniş toxunub:

"Bu məsələnin iki həlli yolu var. Ya hüquqi baza yaradıb onun əsasında prosesi tənzimləməli, ya da insanların özləri şüurlu səviyyədə bu prosesə getməlidirlər. Əks halda, cəmiyyət uzun illər bu problemdən əziyyət çəkəcək".

## BQXK: Azərbaycanda hələ də insanlar partlayıcı qalıqların qurbanı olurlar

***Aktiv döyüşlərin bitməsindən xeyli vaxt keçməsinə baxmayaraq, Azərbaycanda hələ də insanlar partlayıcı qalıqların qurbanı olurlar.***

"Unikal" xəbər verir ki, bu barədə Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) 4 Aprel-Beynəlxalq Mina Xəbərdarlığı və Mina Təhlükəsi ilə Mübarizəyə Yardım Günü münasibətilə yaydığı məlumatda bildirilib.

Qeyd edilib ki, minalar və partlayıcı qalıqlar müharibələrin ən təhlükəli qalıqlarındandır: "Onlar döyüşlər bitdikdən sonra on illiklər keçsə belə, insanların həyatlarına təhlükə yaradır".

Komitə onu da diqqətə çatdırıb ki, mina və partlamamış qurğuların təhlükələri barədə məlumatlılığın artırılması ilə yanaşı, Azərbaycan Respublikası Minatəmizləmə Agentliyi (ANAMA) və bu yöndə fəaliyyət göstərən digər yerli qurumlarla sıx əməkdaşlıq edir: "Azərbaycan Qızıl Aypara Cəmiyyəti ilə birlikdə Beynəlxalq Qızıl Xaç Komitəsi (BQXK) Azərbaycanda münaqişənin təsirinə məruz qalmış ərazilərdə yaşayan insanlar arasında minalar və MPQ-lərin təhlükələri barədə məlumatlılığın artırılması üçün fəaliyyətlər həyata keçirir. BQXK-nın Silahlarla çirklənmiş ərazilərlə bağlı iş proqramının başlanmasından etibarən 36,000-dən çox insana (2023-cü il ərzində 13,000 nəfərə) bu istiqamətdə həyat xilasedici məlumatlar çatdırılmış, eyni zamanda daha təhlükəsiz davranış haqqında mesajlar ötürülmüşdür. Mina və partlamamış qurğuların təhlükələri barədə məlumatlılığın artırılması ilə yanaşı, BQXK Azərbaycan Respublikası Minatəmizləmə Agentliyi və bu yöndə fəaliyyət göstərən digər yerli qurumlarla sıx əməkdaşlıq edir. Bu əməkdaşlıq çərçivəsində aidiyyəti sahədə çalışan mütəxəssislər üçün müxtəlif təlimlər, o cümlədən partlayış travmalarına yanaşma kursu, ilk yardım təlimləri təşkil edilir, mina təmizlənməsi üçün lazım ola biləcək fərqli avadanlıqların ianəsi həyata keçirilir".

## Rasim Məmmədova görə 24 milyonluq məktəb dövlət nəfinə alındı

***Bakının Badamdar qəsəbəsində yerləşən məşhur Bakı Oksford Məktəbi dövlət nəfinə alınıb.***

"Unikal" xəbər verir ki, məktəb binasının müsadirə edilməsi ilə bağlı məhkəmə hökmü bu yaxınlarda icra edilib. Məktəbin binası ümumilikdə 24 milyon 700 min manat qiymətləndirilib.

Qeyd edək ki, məktəb hələ də eyni binada fəaliyyətini davam etdirir. Rəhbəri isə yenə Rasim Məmmədov?un həyat yoldaşı Mehriban Məmmədovadır.

Xatırladaq ki, M.Məmmədovanın əri "Baku Steel Company"nin keçmiş rəhbəri Rasim Məmmədov korrupsiya cinayətləri ilə bağlı 14 il azadlıqdan məhrum edilib. Cinayət işində qeyd edilir ki, Bakı Oksford Məktəbi onun cinayət yolu ilə əldə etdiyi pulla tikilib. Bu səbəbdən məktəbin binası Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə müsadirə edilib. Bakı Apellyasiya Məhkəməsinin qərarı ilə isə hökm qanuni qüvvəyə minib.

## Xankəndidə silah-sursat tapıldı

***Xankəndidə silah-sursat aşkar edilib.***

Bu barədə "Unikal"a DİN-in mətbuat xidmətindən bildirilib.

Qeyd edilib ki, polis əməkdaşlarının keçirdikləri tədbirlərlə aprelin 3-də Xankəndi şəhəri ərazisindən 6 avtomat silahı, 2 tüfəng, 3 qumbara, 5 alışdırıcı, 44 patron darağı, 10 mərmi, 1690 ədəd müxtəlif çaplı patron və digər sursatlar aşkar olunaraq götürülüb.

# Azərbaycanda bir ayda siqaret və içkiyə milyonlar xərclənir

***"Bu ilin ilk 2 ayında pərakəndə ticarət dövriyyəsinin həcmi 8 milyard 555 milyon manat olub".***

"Unikal" xəbər verir ki, bunu iqtisadçı deputat Vüqar Bayramov deyib. O bildirib ki, bu dövrdə xərcləmələrin 50,1 faizi ərzaq məhsullarının, 5,1 faizi içkilər və tütün məmulatlarının, 1,3 faizi kompüterlər, telekommunikasiya avadanlıqları və çap məhsullarının, qalanı isə digər malların alınmasına sərf olunub.



"Xərcləmələrin strukturunda diqqəti çəkən məqam içkilər və tütün məmulatların alınmasına yönəldilən vəsaitin həcmidir. İlk 2 ayda vətəndaşlar bu məqsədlə 440.4 milyon manat xərcləyiblər. Bu o deməkdir ki, vətəndaşlar tərəfindən içkilər və tütün məmulatlarının alınmasına hər ay orta hesabla 220 milyon manat xərclənir. 2024-cü ilin ilk 2 ayında kompüterlər, telekommunikasiya avadanlıqları və çap məhsullarına isə cəmi 109 milyon manat xərclənib. Yəni, Azərbaycanda içki və tütün məhsullarına kompüterlər, telekommunikasiya avadanlıqları və çap məhsullarının alınması ilə müqayisədə hər ay 4 dəfə çox pul xərclənir.

Oksford Universitetinin son tədqiqatlarına görə, dünya əhalisinin ən azı 8 faizi tütün məhsullarının, 5 faizi isə spirtli içkilərin istehlakından dünyasını dəyişir. Kompüterlər, telekommunikasiya avadanlıqları isə innovasiya və elmin inkişafı baxımından çox vacibdir. Belə görsənir ki, biz elmdən daha çox ölümə pul xərcləyirik".

# "Uşağına baxmaq, qayğısına qalmaq istəməyən valideynlər var"

***Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyi tərəfindən ictimai dinləmə keçirilib.***

Görüşdə Agentliyin, eləcə də dövlət və bələdiyyə orqanlarının nümayəndələri qeyri-hökumət təşkilatlarının təmsilçiləri, təhsil işçiləri, tələbələr, mövzu ilə bağlı müraciət edən vətəndaşlar iştirak ediblər. Sosial Xidmətlər Agentliyinin Valideyn himayəsindən məhrum olmuş uşaqlarla iş departamentinin müdiri Cavid Şahmalıyev "Himayədar ailə" qayğı modeli, bu modelin üstünlükləri, müraciət formaları və digər vacib məqamlar barədə iştirakçıları məlumatlandırıb.

O bildirib ki, valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün müavinət ödənir.

"Bu zaman həmin uşağın valideyni deyə bilər ki, olmazmı həmin müavinət onların özünə ödənsin? Bu haqlı sualdır. Lakin bir valideyn övladına baxa bilmədiyini deyirsə, əməkdaşlarımız həmin ailə ilə maraqlanır. Biz bu məsəyə həssas yanaşırıq. Ailənin ehtiyaclarını, onların hansı formada təmin edilə bilməsi yollarını müzakirə edirik. Lakin bir valideyn öz övladının himayəsindən imtina edirsə, bu zaman həmin uşaqların ailə qayğısında böyümə haqqı var. "Himayədar ailə" modeli də buna hesablanıb", - Cavid Şahmalıyev qeyd edib.

Bakı şəhər Baş Polis idarəsinin əməkdaşı, polkovnik Kəmalə Əkbərova deyib ki, hələ də uşağına baxmaq, qayğısına



qalmaq istəməyən valideynlər var.

O deyib ki, gecə saat ikidə övladını bölmənin qarşısına qoyan, baxa bimədiyini deyib imtina edən valideynlər var: "Biz həm fərdi, həm də ümumi qaydada tədbirlər həyata keçiririk ki, uşaqların hüquqları müdafiə olunsun".

# Azərbaycan Xəzər dənizində birgə monitorinqlərin keçirilməsini təklif edir

***"Azərbaycan Xəzər dənizinin çirklənməsini minimuma endirmək üçün tədbirlər görür. Prezident İlham Əliyev Xəzərin ekoloji vəziyyətini daim nəzarətdə saxlayır".***

Bunu ekologiya və təbii sərvətlər nazirinin müavini Umayra Tağıyeva Xəzəryanı dövlətlərin Baş prokurorluqlarının rəhbər vəzifəli şəxslərinin Bakıda keçirilən "Xəzər dənizinin akvatoriyasında ekoloji hüquqpozmalar: Dəniz mühitinin qorunması üçün prokurorluq orqanlarının strategiyaları" mövzusunda bəştərəfli görüşü zamanı deyib.



Onun sözlərinə görə, Xəzər dənizinin təbii sərvətlərindən səmərəli istifadə Xəzəryanı ölkələr üçün mühüm vəzifədir: "Xəzər dənizi ilə bağlı problem beş ölkəni birləşdirir. Bu ölkələr çirklənmənin qarşısını almaq və Xəzərin ehtiyatlarından zərərsiz istifadə etmək üçün ümumi məsuliyyət daşıyır".

Nazir müavini vurğulayıb ki, Xəzər dənizi ilə bağlı təşəbbüslər Bakıda keçiriləcək BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) gündəliyinə daxil ediləcək.

Umayra Tağıyeva Xəzər dənizində birgə monitorinqlərin keçirilməsini, Xəzəryanı ölkələrin ekoloqlarının bir araya gələrək müzakirələr aparmasını da təklif edib.

12_27 IYUI-QARA.qxd 4/4/2024 11:04 PM Page 14



# Xüsusi təyinatlıların əfsanəsi

***"Dostlar, həqiqətən bəzi şeylər var ki, bizim əlimizdə deyil. Amma mən sidq ürəklə deyirəm. Hər zaman, hər an xalqım üçün, torpağım üçün, Vətənim üçün canımdan, qanımdan keçməyə hazıram. Həmişə özümə arzu etmişəm ki, Vətənim üçün şəhid olum, tabutum Azərbaycan Respublikasının üçrəngli, ay-ulduzlu bayrağına bükülüb dəfn olunmağa aparılsın".***



Bu fikirləri 1981-ci ildə Astara rayonunun Əzərüd kəndində dünyaya göz açan xüsusi təyinatların əfsanəsi, Aprel döyüşlərində qana susamış erməni dığalarına qan qusduran, bu gün adı dillərdən düşməyən gizir Pəncəli Teymurov 2013-cü ildə öz toy günündə bildirmişdi. Qəhrəman Vətən sevdalısı üç il sonra, ömrünün 35-ci baharında arzusuna çatıb. Şanlı zəfərimizin başlanğıcı olan Aprel döyüşlərin üçüncü günündə son damla qanına qədər vuruşaraq qəhrəmancasına əbədiyyət adlı dünyasına qovuşub. Ölümsüz həyatı ilə milyonların qəlbinə köç edən Astaranın igid oğlu dövlət tərəfindən "İgidliyə görə", "Vətən uğrunda" medallara layiq olub.

Vətənin müqəddəsliyinə tapınan, qəlbən onun torpağına, daşına bağlanan Pəncəli 1992-ci ildə baş vermiş Xocalı soyqırımının kadrlarını izləyəndə hərbçi olmağa və yurduna dadanmış yağıdan qisas almağa söz verib. Orta məktəbi başa vurub, ürəyində Vətənə məhəbbət, düşmənə nifrət 1999-cu ildə ordu sıralarına yola düşüb. Xidmət zamanı kəşfiyyatçı peşəsinə yiyələnib və hərbi hissənin ən mahir kəşfiyyatçısı olub. Mübarizə meydanında düşmənə qalib gəlmək üçün son dərəcə mərd, cəsur, ağıllı gənc verilən bütün tapşırıqları layiqincə yerinə yetirib, ən çətin təlimlərdə belə fərqlənib. Məhz bunlara görə əsgərlərin, zabitlərin sevimlisinə çevrilib.

Pəncəlinin əsgərlik həyatı üzüağ başa çatsa da, amma düşməndən alacağı öcü hələ qalırdı. Odur ki, hərbi xidməti başa vurduqdan sonra könüllü olaraq xidmətini yenicə yaradılan Azərbaycan Xüsusi Təyinatlı Qüvvələrinin kəşfiyyatçı-diversant taborunda davam etməyə qərar verib. Vətən naminə göstərdiyi qəhrəmanlıqlar bir-birini əvəz edib. Düşmənə nifrəti günbəgün alovlanıb. Xocalı faciəsi zamanı azərbaycanlıları öldürən erməni hərbçi general rütbəsi almağa gedərkən Pəncəli Teymurov onu izləyib və əlverişli məqam düşən kimi o dünyaya göndərib. Bundan sonra erməni ordusunda böyük çaxnaşma yaranıb. 2015-ci ildə kəşfiyyat qrupu ilə Kəlbəcərə keçən Pəncəli 4 erməni zabitin və 20 əsgərin olduğu "Ural" markalı maşını partladaraq onların hamısını məhv edib. Bir dəfə erməni hərbçiləri Pəncəlini tutmaq üçün pusquya salırlar, o isə 21 gündən sora pusqudan çıxaraq növbəti dəfə düşmənin canına vəlvələ salıb. Cəbhə xəttində düşmənlə dəfələrlə qarşı-qarşıya gəlib, həmişə də Vətənə, torpağa məhəbbəti sayəsində ağır sınaqlardan üzü ağ çıxıb...

17 il Azərbaycan ordusunun gizir Pəncəli Teymurov öz doğma Vətənini göz-bəbəyi kimi qoruyub, 2016-cı ilin Aprel döyüşlərində ona olan sonuncu borcunu şərəflə verib. Vətənin yaşaması naminə ölümü özünə şərəf bilib.

***Zəfər Orucoğlu, AJB üzvü***

# "Xəzər regionu çətinliklərlə üzləşir" - Umayra Tağıyeva

***Hazırda Xəzər regionu həll olunmamış ekoloji problemlərin mənfi təsiri ilə bağlı bir sıra çətinliklərlə üzləşir.***



"Unikal" xəbər verir ki, bunu ekologiya və təbii sərvətlər nazirinin müavini Umayra Tağıyeva Bakıda Xəzəryanı dövlətlərin Baş Prokurorluqlarının rəhbər şəxslərinin "Xəzər Dənizinin Akvatoriyasında Ekoloji Hüquqpozmalar: Dəniz Mühitinin Qorunması üçün Prokurorluq Orqanlarının Strategiyaları" mövzusunda beştərəfli görüşündə çıxışında deyib.

O bildirib ki, bioresursların azalması, dəniz mühitinin çirklənməsi kimi antropogen təsirlərlə yanaşı, iqlim dəyişikliyi nəticəsində dəniz səviyyəsinin uzunmüddətli aşağı düşməsi dəniz ekosistemlərinin deqradasiyasına gətirib çıxarır:

"Xəzər dənizinin ətraf mühitinin mühafizəsi və təbii ehtiyatlardan səmərəli istifadə məsələləri Xəzəryanı ölkələrin milli siyasətinin prioritet istiqamətlərindəndir.

Təsadüfi deyil ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Xəzər dənizinin ətraf mühitin bugünkü vəziyyətinin və dəniz səviyyəsinin aşağı düşmə dinamikasının narahatlıq doğurduğunu, bu problemlərin həlli ilə əlaqədar əməkdaşlığın genişləndirilməsində maraqlı olduğumuzu öz çıxışlarında bildirib".

Nazir müavini qeyd edib ki, Xəzər problemi ətrafında 5 ölkəni birləşdirən və 2006-cı ildən qüvvəyə minən "Xəzər dənizinin dəniz ətraf mühitinin mühafizəsi haqqında" Tehran Konvensiyası birgə fəaliyyət üçün regional platformadır: "Xəzəryanı ölkələr dənizin çirklənməsinin qarşısının alınması və ona nəzarət, eləcə də onun ətraf mühitinin mühafizəsi və bərpası üçün zəruri tədbirlərin görülməsi, Xəzər dənizinin ehtiyatlarından onun ətraf mühitinə xələl gətirmədən istifadə edilməsi və Konvensiyanın məqsədinə nail olmaq üçün öz aralarında və müvafiq beynəlxalq təşkilatlarla əməkdaşlıq etmək üzrə ümumi öhdəlik daşıyırlar".

# Azərbaycan və Ermənistanın 1988-ci ildə imzaladığı demarkasiya sənədi üzə çıxdı

***Demarkasiya və delimitasiya ilə bağlı Ermənistan və Azərbaycan hökumətləri arasında imzalanmış sənəd var.***

"Unikal" xəbər verir ki, bu barədə Ermənistan Milli Komitəsinin keçmiş aparat rəhbəri Aruşan Akopyan bildirib.

O, sözügedən sənədin 1988-ci ildə imzalandığını açıqlayıb: "Sənəd komissiyanın 16 ilə yaxın davam edən uzun işindən sonra imzalanıb. SSRİ hökumətinin qərarı ilə iki respublikanın -



Ermənistan və Azərbaycan hökumətləri arasında 1988-ci ilə qədər fəaliyyət göstərən ümumi sərhədləşdirmə və demarkasiya komissiyası yaradıldı. Komissiyaya iki ölkənin sərhəd zonalarından ekspertlər, rəsmi şəxslər və torpaq istifadəçiləri daxil idi. Və yekun protokol 1988-ci ildə imzalanıb.

Meğridən Noyemberyana qədər 932 km məsafədə olan Naxçıvanın bütün sərhədi demarkasiya edilib".

Onun sözlərinə görə, bütün sənədlər Moskva Geodeziya və Kartoqrafiya İnstitutunun arxivində saxlanılır.

***Ağarza Elçinoğlu***

# Qusarda kənd təsərrüfatı məhsulunun yığımı barədə statistika




***Rayonda kənd təsərrüfatının əsas və həlledici sahələri taxılçılıq və meyvəçilikdir.***

Belə ki, 2023-cü ildə mövcud olan məhsulu yığılmış 27987,6 hektar əkin sahəsinin 23832 hektarını payızlıq və yazlıq dənli bitkilərin əkin sahəsi təşkil edib. Ondan 16008 hektarı payızlıq və yazlıq buğda, 7822 hektarı payızlıq və yazlıq arpa, 2 hektarı isə vələmir sahələridir. Havaların taxılçılıq üçün əlverişli keçməsi məhsuldarlığın yüksək olmasına səbəb olmuş və hər hektardan orta məhsuldarlıq 30,1 sentner olmuşdur. 2024-cü ilin məhsulu üçün rayonda keçən ilin payızında 22859 hektar sahədə səpin aparılmış və ondan 15570 hektarı payızlıq buğda, 7289 hektarı payızlıq arpa təşkil edir.

Rayonda 13863,5 hektar meyvə və giləmeyvə bağları mövcuddur ki, bundan 12031,6 hektarı bar verən sahələrdir. 2023-cü ildə həmin sahələrdən rekord miqdarda 57016,6 ton meyvə və giləmeyvə məhsulu yığılıb.

Hazırda bağlarda və sahələrdə zəruri aqrotexniki tədbirlər həyata keçirilir.

***Qusar Rayon Statistika İdarəsi***

# "Azərbaycanda Ali Təhsilin İnkişafı üzrə Komissiya yaradılsın" - Rektor

***Azərbaycanda Ali Təhsilin İnkişafı üzrə Komissiyanın yaradılması təklif edilib.***

"Unikal" xəbər verir ki, bu təkliflə Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) rektoru Ədalət Muradov çıxış edib.

Rektor müasir dövrdə ali təhsilin rəqəmsallaşması və bununla bağlı ali təhsilin fəlsəfəsi, məzmunu və bütövlükdə inkişafında ciddi dəyişikliklərin baş verdiyini bildirib və Azərbaycanda yeni dövrün başladığını və yeni dövrün təhsilinə yeni baxışların formalaşdırılmasının vacibliyini, yeni dövrdə Azərbaycanın təhsil potensialının artırılmasının əhəmiyyətini və reallaşdırılmasının zəruriliyini vurğulayıb.

Ədalət Muradov bütün bunları, eləcə də xarici təcrübəni nəzərə alaraq Azərbaycanda Ali Təhsilin İnkişafı üzrə Komissiyanın yaradılmasını təklif edib.



# İmtahanda 13 qızla birlikdə maksimum nəticə göstərən tək oğlan şagird

***Məlum olduğu kimi, buraxılış imtahanlarında 14 nəfər maksimum nəticə, yəni 300 bal toplayıb. Onlardan 13-ü qız, 1-i isə oğlan şagirddir.***

"Unikal" xəbər verir ki, 13 xanımın içində maksimal nəticə göstərmiş tək oğlan şagird Elşən Yusibovdur. O, Qəbələ rayonu, Həmzəli kənd orta məktəbinin şagirdidir.

Arzusu isə Azərbaycan Tibb Universitetində təhsil almaqdır.

12_27 IYUl-QARA.qxd 4/4/2024 11:04 PM Page 15





## Lavrov Ukraynanı terrorçu dövlət adlandırdı

***Ukrayna əsl terrorçu dövlətə çevrilib.***

"Unikal" xəbər verir ki, bunu Rusiyanın xarici işlər naziri Sergey Lavrov deyib. "Bu gün Ukraynanın özü açıq-aşkar terrorçu dövlətə çevrilib: on ildir ki, o, öz ölkəsinin və onun hüdudlarından kənarda vətəndaşları terror törədir", - deyə nazir qeyd edib.

***Gülayə Mecid***

## "Əvəzini ağır ödəyəcək" - Rəisi İsraili hədələdi



***İsrail bu cinayət əməlinin əvəzini ağır ödəyəcək.***

"Unikal" xəbər verir ki, bunu İran prezidenti İbrahim Rəisi İraqın baş naziri Məhəmməd Şia əl-Sudani ilə teelfon danışığı zamanı deyib.

Tərəflər İranın Suriyadakı konsulluğunda törədilmiş terror aktı ilə bağlı müzakirələr aparıb.

"İran bu terror aktını, sionist rejimin terror cinayətini diplomatik və konsulluq yerlərinin toxunulmazlığı prinsipinin açıq şəkildə pozulması kimi qiymətləndirib. Sionist rejim bu cinayət əməlinin əvəzini ağır ödəyəcək".

***Ağarza***

## "Rusiya ilə NATO arasında münasibətlər qarşıdurma səviyyəsindədir" - Peskov



***"Rusiya ilə NATO arasında münasibətlər birbaşa qarşıdurma səviyyəsinə düşüb".***

"Unikal" xəbər verir ki, bunu Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov jurnalistlərə açıqlamasında deyib.

"Əslində bu münasibətlər indi birbaşa qarşıdurma səviyyəsinə düşüb", - deyə o, aydınlaşdırıb.

Peskov vurğulayıb ki, alyans artıq Ukrayna münaqişəsində iştirak edir.

***Gülayə Mecid***

## "Bu ölkələrin Azərbaycanı hədəf almadıqlarını deməsinə inanmırıq" - Çavuşoğlu

***Şuşa Bəyannaməsi ilə bərabər Azərbaycan və Türkiyə münasibətləri müttəfiqlik səviyyəsinə yüksəldi.***

"Unikal" xəbər verir ki, Türkiyə Böyük Millət Məclisinin NATO PA-dakı nümayəndə heyətinin rəhbəri Mövlud Çavuşoğlu Şəhidlər xiyabanı və Türk Şəhidliyini ziyarəti zamanı jurnalistlərə açıqlamasında deyib.

"Bu bəyannamə çərçivəsində Türkiyə Azərbaycanın nəyə ehtiyacı olarsa, o mövzuda yanında olacaq. Ermənistana dəstək verən ölkələrin Azərbaycanı hədəf almadıqlarını bildirməsinə inanmırıq. Təbii ki, regiona iqtisadi dəstək verə bilərlər. Amma xüsusilə silah mövzusunda verdikləri dəstəyin Ermənistana, regiona faydası olmaz. Bunu daha əvvəl yoxladılar və faydası olmadığını gördülər", - deyə o bildirib.

# "Hamı insandır, heç kim təhqir olunmaq istəmir" - Paşinyan

***"Çox vaxt hökumətlər bir çox mövzuya toxunmur, bunun ictimai müqavimətlə, bəzi təhqiramiz ritorika ilə qarşılanacağını düşünürlər. Hamı insandır, heç kim təhqir olunmaq istəmir".***

"Unikal" xəbər verir ki, bu barədə Ermənistanın baş naziri Nikol Paşinyan hökumətin növbəti iclasında bildirib.

Onun sözlərinə görə, hökumət qərar qəbul etməyə hazır olmalıdır: "Təbii ki, o qərarlar ölkənin uzunmüddətli, orta və qısamüddətli maraqlarından irəli gələrək müzakirə edilməli, öyrənilməlidir. Biz qeyd etməliyik ki, bu, hökumətin işidir. Hamının hər zaman, hər yerdə alqışlarla qəbul edəcəyi işlər görmək istəsək, bu, olmayacaq. Bəlkə də səhnə fəaliyyəti ilə məşğul olmağa çalışmalısınız, baxmayaraq ki, bu da asan deyil, bəzən onları pomidor və yumurta ilə qəbul etmək təcrübəsi də var. Amma burada siyasi iradə, liderlik sınağı var. Siz rəhbərlik edə bilirsiniz, yoxsa yox?"

***Ağarza Elçinoğlu***



# "Sülhməramlılar Bakı ilə atəşkəs imzaladıqdan sonra üzə çıxıblar" - Səfir

***"Ermənistanın köməyə ehtiyacı olanda, Rusiya yanında deyildi".***

"Unikal" xarici KİV-ə istinadən xəbər verir ki, bunu Fransanın Ermənistandakı fövqəladə və səlahiyyətli səfiri Olivye Dekotini deyib.

Onun sözlərinə görə, Qərb Ermənistana kömək edir: "Bir blok deyil, müxtəlif təşkilatlar, bir çox təşəbbüslər, müxtəlif ölkələr tərəfindən təmsil olunan Qərb bu gün köməyə gəlir".

Rusiya Xarici İşlər Nazirliyinin nümayəndəsi Mariya Zaxarovanın Qərb və Fransanın Cənubi Qafqaza



qeyri-sabitlik gətirməsi ilə bağlı bəyanatına toxunan səfir bildirib: "Son illərdə Ermənistanın rəsmi müttəfiqi olan, KTMT-nin üzvü olan Rusiya Ermənistanın köməyinə gəlmədi. Bu arada, 2023-cü ildə Azərbaycan Qarabağda hərbi əməliyyata başlayanda, 2020-ci ildən atəşkəsin təminatçısı olan və Qarabağda sülhməramlı qoşunları olan Rusiya müdaxilə etməyib. Rusiya sülhməramlıları öz kazarmalarından yalnız Qarabağın defakto hakimiyyətinin qüvvələrinin tərksilahı zamanı, Bakı ilə atəşkəs imzaladıqdan sonra çıxıblar. Deməli, Ermənistanın təhlükəsizliyini dəstəkləməyən Rusiyadır".

***Ağarza Elçinoğlu***

## "Bu, Fransaya problemlər yaradacaq" - Şoyqu fransız həmkarına xəbərdarlıq etdi

***Rusiyanın müdafiə naziri Sergey Şoyqu ilə Fransanın müdafiə naziri Sebastian Lekornu arasında telefon danışığı olub.***

"Unikal" xəbər verir ki, bu barədə TASS məlumat yayıb.

Bildirilib ki, rusiyalı nazir Fransa hərbçilərinin Ukraynada olmasının Paris üçün yaradacağı problemlər barədə xəbərdarlıq edib: "Yelisey sarayının Ukraynaya fransız hərbçilərinin göndərilməsi ilə bağlı bəyanatlarına gəlincə, Sergey Şoyqu qeyd edib ki, onlar praktikada həyata keçirilərsə, bu, Fransanın özü üçün problemlər yaradacaq".

***Ağarza Elçinoğlu***



# İranda polis məntəqələrinə hücum edən 15 terrorçu zərərsizləşdirildi

***İranın Rask və Çabahar şəhərlərində polis məntəqələrinə hücum edən 15 terrorçu zərərsizləşdirilib.***

Bu barədə məlumatı İran İslam İnqilabı Keçikçiləri Korpusu (SEPAH) yayıb. Daha əvvəl yayılan məlumatda 8 terrorçunun öldürüldüyü bildirilirdi. Qeyd edək ki, hücum gecə saatlarında "Ceyş əl-Ədl" qruplaşmasının üzvləri tərəfindən həyata keçirilib. Hadisə nəticəsində hüquq-mühafizə orqanlarının 5 əməkdaşı həlak olub.

# Səslər yenidən sayıldı, bələdiyyə AKP-yə keçdi

***Türkiyədə 31 martda keçirilən bələdiyyə seçkilərində Yenidən Rifah Partiyası (YRP) namizədinin qalib gəldiyi Bitlis vilayətinin Güroymak rayonunda hakim partiyanın etirazından sonra seçki komissiyası səslərin yenidən sayılmasına qərar verib.***

Buna səbəb YRP namizədinin cəmi 2 səs fərqi ilə qələbə çalması olub. Belə ki, seçki nəticələrinə görə, AKP namizədi Eşref Mutlu 4 290, YRP namizədi Emrullah Yıldırım 4 292 toplamışdı. Üçüncü sıradakı DEM Partiya namizədi Mehmet Şirin Üncü isə 4 206 səs yığmışdı.

Etirazlardan sonra seçki komissiyası 14 107 seçicinin səs verdiyi 62 seçki məntəqəsində səslərin yenidən sayılmasına qərar verib.

Hesablama nəticəsində AKP namizədi Mutlunun səsi 13 vahid artaraq 4 313, YRP namizədi Yıldırımın səsi 5 vahid artaraq 4 min 297, DEM Partiya namizədi Üncünün səsi isə 15 vahid artaraq 4 221 olub.

Bu nəticələrə görə, AKP-nin Güroymak bələdiyyəsinin sədrliyinə namizədi Eşref Mutlu qalib olub.

12_27 IYUI-QARA.qxd 4/4/2024 11:04 PM Page 16



# Azərbaycan millisi FIFA reytinqində irəlilədi

***FIFA milli komandaların yeni reytinq siyahısını açıqlayıb.***

"Unikal" xəbər verir ki, bir pillə irəliləyən Azərbaycan yığması 112-ci olub.

Komandamızın hesabında 1177,83 xal var.

Hazırda baş məşqçisiz olan milli Bakıda keçirilmiş



"FIFA series - Edition 2024" layihəsində Monqolustanı 1:0 hesabı ilə üstələyib, Bolqarıstan kollektivi ilə heç-heçə edib - 1:1.

Siyahıya son dünya çempionu Argentina (1855.2) başçılıq edir. Fransa (1845,44) ikinci, Belçika (1798,46) üçüncüdür.

# "Neftçi"dən Azərbaycan Kubokunda antirekord

***"Neftçi" Azərbaycan Kubokunda ən böyükhesablı məğlubiyyətini alıb.***

"Unikal" Peşəkar Futbol Liqasının rəsmi saytına istinadən xəbər verir ki, bu, 1/2 finalın "Qarabağ"la ilk matçına təsadüf edib.

Bakılılar bunadək kubokda yalnız bir dəfə böyük hesabla uduzublar. 2009/2010-cu illər mövsümündə "ağ-qaralar" "İnter"ə 0:3 hesabı ilə uduzub.

"Neftçi" 14 mövsümdən sonra aldığı böyükhesablı məğlubiyyətlə yenə ev matçında üzləşib. Amma bu dəfə üç deyil, dörd top fərqi ilə uduzan paytaxt təmsilçisi antirekorda üzülüb.



# "Kloppun gedişi dəhşətli olacaq, o gündən qorxuram"

***"Liverpul"un müdafiəçisi VirCil van Deyk Yurgen Klopp haqda danışıb.***

QOL.az Britaniya mətbuatına istinadən xəbər verir ki, o, bu mövsümün sonunda klubdan ayrılacaq mütəxəssislə bağlı deyib: "Mən emosional insanam, vidalaşmağı sevmirəm. Kloppun gedişi dəhşətli olacaq! Kapitan kimi yəqin ki, nəsə deməliyəm, o gündən qorxuram. Əgər uğur qazansaq, bu, bir az işimizi asanlaşdıracaq. Bu, bizim məqsədimizdir".



Klopp yanvar ayında bu mövsümün sonunda "Liverpul"dan ayrılacağını açıqlamışdı. 56 yaşlı mütəxəssis 2015-ci ildən komandanı çalışır. 29 oyundan sonra "Liverpul" 67 xalla Premyer Liqanın turnir cədvəlinə başçılıq edir və 2-ci yerdə qərarlaşan "Arsenal"ı 2 xal qabaqlayır.

# "Arsenal" və "Siti" qələbə qazandı

***Ingiltərə Premyer Liqasında 31-ci turun oyunları keçirilir.***

"Unikal" xəbər verir ki, ötən gün daha 3 oyun keçirilib. "Arsenal" evdə "Luton Taun"a , "Mançester Siti" isə "Aston Villa"ya qalib gəlib. "Brentford" - "Brayton" matçında isə qol vurulmayıb.

Bu nəticələrdən sonra "Arsenal" xallarını 68-ə çatdıraraq liderliyə yüksəlib. Bu gün Şeffild Yunayted"lə qarşılaşacaq "Liverpul" 67 xalla 2-ci, "Mançester Siti" isə eyni xalla 3-cüdür.

**3 aprel**

"Arsenal" - "Luton Taun" - 2:0

Qollar: Edeqor, 24. Haşioka, 44-avtoqol

"Brentford" - "Brayton" - 0:0

"Mançester Siti" - "Aston Villa" - 4:1

Qollar: Rodri, 11. Foden, 45+1; 62; 69 - Duran, 20.



# Prezidentin nəvəsindən Qara Qarayevə dəstək

***Prezident İlham Əliyevin nəvəsi Mikayıl Ağalarov "Neftçi"nin futbolçusu Qara Qarayevə dəstək olub.***

"Unikal" xəbər verir ki, o, öz instaqram hesabında futbolçunun fotosunu "Huge respect" başlığı ilə paylaşıb.

Qeyd edək ki, Azərbaycan kubokunun yarımfinal mərhələsində baş tutmuş "Neftçi"-"Qarabağ" derbisindən sonra Ağdam təmsilçisinin azarkeşləri Qara Qarayevi təhqir etmişdi. Bu hadisədən sonra bir çox futbolçular, tanınmışlar Qara Qarayevi paylaşaraq ona dəstək nümayiş etdiriblər.



# Daha bir ağırlıqqaldıranımız Dünya Kubokunda mübarizə apardı

***Azərbaycanın daha bir ağırlıqqaldıranı Ömər Cavadov Tailandın Phuket şəhərində keçirilən Dünya Kubokunda mübarizə aparıb.***

73 kq çəki dərəcəsində çıxış edən idmançı C qrupunda qüvvəsini sınayıb.

O, toplam 328 kq (153+175) nəticə göstərib. Cavadovun yekun sıralamadakı yeri yuxarı qruplardakı yarışlar başa çatandan sonra müəyyənləşəcək.

Qeyd edək ki, Dünya Kuboku aprelin 11-də başa çatacaq. Azərbaycan millisi Paris-2024 Yay Olimpiya Oyunlarına lisenziya xarakterli son turnirdə 5 idmançı ilə təmsil olunur. Daha əvvəl Nazilə İsmayılova (45 kq) yarışda beşinci olub. İsa Rüstəmov (73 kq) D qrupunda 320 kq-ın (145+175) öhdəsindən gəlib.

# Di Mariya "Benfika"da qalacaq



***"Benfika"nın yarımmüdafiəçisi Anxel Di Maria ilə bağlı qərarını verib.***

QOL.az xəbər verir ki, klub 36 yaşlı futbolçu ilə müqaviləsini uzadacaq. Bu barədə insayder Nikolo Şira məlumat yayıb.

Lissabon klubu argentinalı oyunçu ilə 2025-ci ilin yayına qədər yeni müqavilə imzalayacaq. Tərəflərin hazırkı sözləşməsi isə 2024-cü ilə qədərdir.

Qeyd edək ki, bu mövsüm Di Maria 41 oyun keçirib, 15 qol vurub və 12 qolun ötürməsini verib.

# Azərbaycan millisi Avropa birinciliyində 11 boksçu ilə təmsil olunacaq

***Xorvatiyanın Poreç şəhərində gənc boksçular arasında Avropa birinciliyi start götürəcək.***




10 gün davam edəcək yarışda Azərbaycan millisi qüvvəsini sınayacaq.

Milli birincilikdə 11 boksçu ilə təmsil olunacaq. Məşqçilər korpusu Poreçdə Bilalhəbaşi Nəzərov (48 kq), Zidan Hümbətov (51 kq), Ömər Aslanlı (54 kq), Məhəmmədəli Aşurəliyev (57 kq), Məhəmmədəli Qasımzadə (60 kq), İbrahim Zeynalov (63,5 kq), Abbasqulu Şadlinski (67 kq), Ziya Həsənov (71 kq), Lalə Mədətova (48 kq), Qızbəs İsgəndər (60 kq) və Emili Rzayevaya (66 kq) şans verəcək.

Komandaya Azərbaycan Boks Federasiyası İdarə Heyətinin üzvü Rövşən Hüseynov rəhbərlik edəcək. Hakimlər Komitəsinin sədri Emil Qurbanəliyev isə referilər sırasında yer alacaq.

Qeyd edək ki, yarışda 35 ölkədən 376 (253 oğlan, 123 qız) boksçunun iştirakı gözlənilir.